## Türk ordusu son 2 gündə 20 terrorçunu məhv edib



**Türkiyə ordusu son 2 gündə 20 terrorçunu məhv edib.**

"Report" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu barədə milli müdafiə naziri Hulusi Akar bildirib. Nazir qeyd edib ki, İraqın şimalındakı Avaşin-Basyan bölgəsində Türkiyə ordusunun 3 əsgərini öldürən terrorçular da daxil olmaqla, dünən 6, bu gün 14 nəfər olmaqla, ümumilikdə 20 terrorçu zərərsizləşdirilib.

Hulusi Akarın sözlərinə görə, 2015-ci ildən İraq və Suriyada ümumilikdə 33 100 terrorçu, bu ilin əvvəlindən isə 2 619 terrorçu zərərsizləşdirilib.

## Lənkəranda velosipedlə hərəkət edən şəxs çaya düşərək boğulub



**Lənkəranda çayda boğulma hadisəsi qeydə alınıb.**

APA-nın cənub bürosunun verdiyi məlumata görə, axşam saatlarında Vilvan kəndində çayın sahili ilə velosipedlə hərəkətdə olarkən Qurbanəli Cəfərov suya düşüb.

*Nəticədə boğularaq ölən 1962-ci il təvəllüdlü kişinin meyiti aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı araşdırma aparılır.*



## Ermənistan sərhəddəki itkilərini açıqlayıb

### Bir hərbçi ölüb, 8 hərbçi yaralanıb, onlardan 6-sının vəziyyəti ağırdır

**Azərbaycanla sərhəddə Ermənistan ordusunun 1 hərbçisi ölüb, 8 hərbçisi isə yaralanıb.**

Bu barədə Ermənistan Müdafiə Nazirliyi məlumat yayıb. 6 hərbi qulluqçunun vəziyyətinin ağır olduğu bildirilib. Atışmanın dayandığı qeyd olunub.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonu ərazisində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirməklə növbəti təxribata əl atıb. Qarşı tərəf dekabrın 10-u saat 12:00-dan etibarən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəş altında saxlamağa cəhd edib. Bölmələrimiz tərəfindən qısa müddət ərzində görülən cavab tədbirləri nəticəsində qarşı tərəf susdurularaq, onun təxribat xarakterli fəaliyyətləri dayandırılıb. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.


❐ № 226 (5508), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 dekabr 2021-ci il (şənbə)


# Moskvada ilk toplantı baş tutdu

## “3+3” platformasının iştirakçıları Gürcüstanı da formata qoşulmağa çağırdılar







(səh.2)



## Azad edilmiş ərazilərdə sahibkarlara vergi və gömrük güzəştləri tətbiq ediləcək

**İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara vergi və gömrük güzəştləri tətbiq ediləcək.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamda əksini tapıb.

Sərəncama əsasən, Nazirlər Kabineti 3 ay müddətində işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi barədə təkliflər hazırlayacaq və Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

## "Ermənilər atəşkəsi 203 dəfə pozublar"

### Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumat yaydı



**Atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başlayandan indiyədək erməni qüvvələrinin 203 dəfə atəşkəsi pozduğunu qeydə alıb.**

"TRT Haber" telekanalı yayıb.

Televiziya əməkdaşı Fatih Avanosu mərkəzə ezam edib.

(səh.2)

## Bir ildən çox vaxt keçir

### Qarabağdakı ermənilər hələ də silahı yerə qoymayıblar



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə çıxışı zamanı Rusiyanın rəsmi Bakı və İrəvanla daim təmasda olduğunu bildirib.**

Eyni zamanda M.Zaxarova üçtərəfli razılaşmaların, o cümlədən sərhəd mübahisələrinin həlli və Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasına dair məsələlərin icrası üzərində işlədiyini bəyan edib. M.Zaxarova Azərbaycan-Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması istiqamətində işin aparılmasının vacibliyini vurğulayıb.

(səh.5)

## Reyestrə daxil olmuş jurnalistlərə vahid vəsiqələr veriləcək

### “Media haqqında” qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu ilə İnsan hüquqları komitələrinin birgə keçirilən iclasında ”Media haqqında” qanun layihəsinin müzakirəsi keçirilib.**

Müzakirədə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, deputatlar, media qurumlarının rəhbərləri və digər şəxslər iştirak ediblər. Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ”Media haqqında” qanun layihəsinin qanunvericilik baxımından mükəmməl hazırlandığını deyib.



(səh.3)

## Kibertəhlükəsizlik prioritet sahədir

### Böyük Britaniya Ankaranı yanında görmək istəyir



İngiltərə Müdafiə və Təhlükəsizlik Forumunun rəhbəri Olqa Meytland ölkəsinin Türkiyə ilə məlumat bölüşməyə hazır olduğunu və türk dövlətinin müttəfiq kimi qəbul edilməsinin lazım olduğunu bildirib. Meytland Türkiyənin kibertəhlükəsizlik sahəsində mühüm aktor olduğunu deyib.

(səh.5)

## Sağalanlar 2 minə yaxınlaşdı

### 1109 nəfər koronavirusa yoluxub, 17 nəfər ölüb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1109 yeni yoluxma faktı qeydə alınıb 1946 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 602137 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 573034 nəfər müalicə olunaraq sağalıb, 8055 nəfər vəfat edib, aktiv xəstə sayı 21048 nəfərdir.



## "Bəzi insanlar bir neçə xarici dil bilməsiylə öyünürlər"

Anar: “Azərbaycanda yaşayan adamlar dövlət dilimizi bilsələr, bu, günahdır?”

(səh.4)

## Nazarbayev Azərbaycanı Avrasiya İqtisadi İttifaqına çəkmək istəyir

Ekspertlər isə hesab edir ki, ölkəmizin Rusiyanın rəhbərlik etdiyi birlikdə təmsil olunması arzuolunan deyil



(səh.4)

# Moskvada ilk toplantı baş tutdu

"3+3" platformasının iştirakçıları Gürcüstanı da formata qoşulmağa çağırdılar



İsmayıl Qocayev

**Dünən Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin müavinlərinin həmsədrliyi ilə "3+3" Məşvərətçi Regional Platformasının birinci iclası keçirilib.**

İclasda Türkiyə və İran Xarici İşlər Nazirliyinin təmsilçiləri də iştirak ediblər. Gürcüstanın isə dəvət olunmuş nümayəndələri iclasda iştirakdan imtina ediblər.

Görüş zamanı çoxşaxəli regional əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Platformanın işini onun bütün iştirakçılarını maraqlandıran praktiki məsələlərə yönəltmək razılaşdırılıb. Bunlara etimadın artırılması, ticarət-iqtisadi, nəqliyyat, mədəni və humanitar sahələrdə qarşılıqlı fəaliyyət, ümumi çağırış və təhdidlərə qarşı mübarizə tədbirləri daxildir.

Beş ölkənin nümayəndələri Gürcüstanın da platformanın işinə qoşulmasında maraqlı olduqlarını bildiriblər.

Aidiyyəti nazirlik və idarələrin mümkün iştirakı ilə gələcək addımlar və gələcək üçün iş planları müzakirə edilib.

**Xarici işlər nazirinin müavini Xələf Xələfov Moskva şəhərində keçirilmiş "3+3" formatında görüş ilə bağlı KİV-in sualını cavablandırıb.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, o xatırladıb ki, 10 dekabr 2021-ci il tarixində Moskva şəhərində, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü təşəbbüsə əsasən "3+3" regional məsləhətləşmələr mexanizminin Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyə xarici işlər nazirlərinin müavinləri səviyyəsində təsis iclası keçirilib.

"Gürcüstanın gələcəkdə bu formata qoşulması bütün iştirakçılar tərəfindən təqdir edilmişdir. Həyata keçirilən müzakirələrin nəticələri barədə Gürcüstan tərəfi də məlumatlandırılacaqdır.

İclasda regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası, yenidən qurulması və genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafına yönəlik fikir mübadiləsi aparılıb.

Mexanizm çərçivəsində nazir müavinləri səviyyəsində görüşlər və müzakirələrin ən azı ildə iki dəfə olmaqla, rotasiya əsasında hər dəfə bir iştirakçı ölkədə keçirilməsi nəzərdə tutulur. Görüşlər və müzakirələr Xarici İşlər Nazirliklərinin əlaqələndirməsi və yönəltməsi çərçivəsində iqtisadiyyat və nəqliyyat nazirliklərinin, ehtiyac yarandıqda isə digər sahəvi qurumların iştirakı ilə keçiriləcəkdir.

Məsləhətləşmələr mexanizminin fəaliyyətinin inkişafından asılı olaraq, daha yüksək səviyyədə görüş və müzakirələr təşkil oluna bilər. Mexanizmin fəaliyyəti konsensus prinsipi əsasında aparılacaqdır.

Görüşlərdə ümumi regional məsələlər və tərəflər üçün qarşılıqlı maraq doğuran və regional sabitliyə və rifaha töhfə verən təşəbbüs və layihələr müzakirə edilə bilər.

Növbəti görüşün keçirilməsi diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaqdır", - deyə nazir müavini qeyd edib.

# Qarşılıqlı fikir mübadiləsi aparılır

## MEDİA qanun layihəsinin ictimai müzakirəsi ilə bağlı fikirlərə münasibət bildirib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Medianın İnkişafı Agentliyi (MEDİA) "Media haqqında" Qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı bir sıra media nümayəndələri tərəfindən ifadə edilən fikirlərə münasibət bildirib.**

MEDİA-dan "Şərq"ə daxil olan məlumatda qeyd olunub ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 9.2-ci maddəsində normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsinin açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla biləcəyi göstərilir.

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edildiyi təsbit olunub. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1.10-cu maddəsində isə informasiya sahibinin normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan onları açıqlamaq vəzifəsi müəyyən edilib. Qeyd olunan normaların məzmunundan göründüyü kimi qanun layihələrinin, o cümlədən "Media haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin ictimai müzakirəsinin təşkil edilməsi normayaratma orqanının, yəni Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir, müvafiq layihələr ya razılaşdırılmaya ya da təsdiq olunmağa göndərildiyi andan açıqlanmalı olduğundan Milli Məclis bu istiqamətdə müddəaların yerinə yetirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq "Media haqqında" qanun layihəsini açıqlamış, onu media nümayəndələrinin, ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının və bu məsələdə ictimai marağı olan digər şəxslərin müzakirəsinə təqdim edib. Məlumat üçün bildiririk ki, hal-hazırda müvafiq qanun layihəsinin mətni ictimaiyyətin geniş müzakirəsindədir və onun ayrı-ayrı normalarının mahiyyəti, məqsədəuyğunluğu ətrafında çoxsaylı media nümayəndələri və ekspertlərini əhatə edən qarşılıqlı fikir mübadiləsi aparılmaqdadır", - məlumatda bildirib.

**Aygün**



### Türkiyə səfiri Rusiya - Türkiyə Birgə Monitorinq Mərkəzində olub

Bu barədə Səfirliyinin "Facebook" səhifəsin məlumat yayılıb

**Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, həmçinin səfirliyin Hərbi Attaşesi briqada generalı Zəkəriyyə Yalçın işğaldan azad edilmiş torpaqlarda atəşkəsin qorunub saxlanılması üçün Türkiyə ilə Rusiya arasında 11.11.2020-ci il tarixdə imzalanmış müqaviləyə uyğun yaradılmış "Birgə Monitorinq Mərkəzi"nə baş çəkiblər.**

Bu barədə Türkiyənin ölkəmizdəki Səfirliyinin "Facebook" səhifəsində bildirilib.

*Qeyd edilib ki, mərkəzin fəaliyyəti barədə səfirə və Hərbi Attaşeyə məlumat verilib.*

# Tehrana nicat yolunu Azərbaycan göstərir

## Sanksiyalarla mübarizə aparan İranın Ermənistanı ayaqda saxlayacaq iqtisadi potensialı yoxdur

**Dekabrın 8-də Meğri gömrük məntəqəsinin bölməsində Ermənistanın Dövlət Gəlirlər Komitəsinin sədri Rüstəm Badasyan İranın Gömrük Xidmətinin rəhbəri Mehdi Mirşərəfi ilə görüşüb.**

Tərəflər iki ölkə arasındakı xidmətin yaxşılaşdırılması məsələlərini müzakirə ediblər. Eyni zamanda qaçaqmalçılığa qarşı mübarizənin səmərəliliyini artırmaq üçün mümkün informasiya mübadiləsindən də danışıblar.

**İran-Ermənistan arasındakı mövcud vəziyyəti "Şərq"ə şərh edən siyasi şərhçi Rusif Məmmədsoy bilidirib ki, Azərbaycan Aşqabad görüşündən sonra İranı öz tərəfinə çəkməyi bacardı:**

"Tərəflərin hazırkı yaxınlaşmasının onlar üçün yaxında müsbət mənada hər hansı bir perspektiv vəd etməsi inandırıcı görünmür.

Sanksiyalarla mübarizə aparan İranın Ermənistanı ayaqda saxlayacaq iqtisadi potensialı yoxdur. Ona ideal şansı biz türkmən qazını Azərbaycana gətirib burdan Avropaya çıxarıb, tranzit xərclərini ödəmək təklif edirik. Bununla rəsmi Tehranın maddi imkanları da genişlənəcək".

*Siyasi şərhçi müharibə dönəmində İranın mövqeyinin hər kəsə bəlli olduğunu və onun hazırda da Ermənistan tərəfə yönəldiyini vurğulayıb:*



"Birmənalı şəkildə rəsmi Tehran Zəngəzur dəhlizinin açılmasını istəmir. Aşqabad görüşündə Azərbaycan, Türkiyə, Pakistan və İranın ölkə başçılarının bir arada olduğu foto var idi. Arada iqtisadi meqalayihələrdən söhbət gedir. Görünən odur ki, fotoda İbrahim Rəisidən başqa hər kəs xoşbəxtdir.

İran özü də bundan qazanacaq, ancaq sonrakı prosesləri düşündüyü üçün İ.Rəisini qəhər boğur".

**R.Məmmədsoy hazırkı İran-Ermənistan münasibətlərini pozmağın mümkün olmadığını diqqətə çatdırıb:** "Bizim vaxtilə Qarabağda işğal altında olan ərazilərimizdəki evlər İrana satılırdı. Tərəflər arasında gizli əməkdaşlıq çox böyük bir həcmdə olub. İbrahim Rəisi Aşqabad görüşündə iddia etdi ki, bunlar onun dönəmində baş verməyib. Ancaq elə olduğunu hər kəs çox yaxşı bilir.

İndi biz tərəflər arasındakı münasibətlərdən danışarkən deyə bilmərik ki, İran yaxın gələcəkdə bu əlaqələrdən ümumuiyyətlə əl çəkəcək. Ən azından biz durumu neytrallaşdıra bilirik" .

**Günəş Mərd**

# "Ermənilər atəşkəsi 203 dəfə pozublar"

## Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi məlumat yaydı



**Atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başlayandan indiyədək erməni qüvvələrinin 203 dəfə atəşkəsi pozduğunu qeydə alıb.**

"Report" xəbər verir ki, məlumatı "TRT Haber" telekanalı yayıb.

Televiziya əməkdaşı Fatih Avanosu mərkəzə ezam edib.

Mərkəzin 11 aydır fəaliyyət göstərdiyini vurğulayan F.Avanos burada 60 türk hərbçisinin xidmət etdiyini, onlardan 13-nün PUA operatoru olduğunu bildirib. Müxbirin sözlərinə görə, atəşkəs pozuntuları barədə həm Azərbaycan, həm də Ermənistan tərəfinə məlumat göndərilir.

Jurnalist atəşkəs pozuntularının necə hesablandığına da aydınlıq gətirib: "Əslində, bu pozuntuların daha çox olduğunu bilirik. Ancaq türk hərbçilər eyni müddətdə təkrarlanan pozuntuları atəşkəsin pozulması üzrə bir fakt kimi qeydə alırlar. Beləliklə, atəşkəs pozuntularının minimum sayı 203-dür".

*Qeyd edək ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi 2021-ci il yanvarın 30-da fəaliyyətə başlayıb. Hazırda mərkəzdə 60 rusiyalı və eyni sayda türkiyəli hərbçi xidmət edir. Onlar PUA-lar vasitəsilə atəşkəs rejiminə əməl olunmasına nəzarət edirlər.*

# Müharibələr bitir, bölgəyə davamlı sülh gəlir

## Türkiyə, İran və Rusiyanın bu platformada iştirakı "3+3"ün cəlbediciliyindən xəbər verir



**"Ermənistanın Azərbaycan torpaqlarını işğalı və rəsmi İrəvanın yürütdüyü təcavüzkar siyasət səbəbindən 30 ilə yaxındır region ölkələri potensial imkanlarını tam reallaşdıra bilmir".**

Bu barədə politoloq Sədrəddin Soltan deyib. Ekspert bildirib ki, ermənilər Cənubi Qafqazda pozuculuq fəaliyyəti ilə regional və beynəlxalq təhlükəsizliyi təhdid etməklə yanaşı, əməkdaşlığa da mane olublar: "Düzdür, Azərbaycan, Gürcüstan və Türkiyə bundan əvvəl bir sıra energetika və kommunikasiya layihələri həyata keçirməklə əməkdaşlığın faydalarını, üstün cəhətlərini çoxdan sübut ediblər. Ermənistan tutduğu təcavüzkar və pozuculuq mövqeyinə görə həmin layihələrdən kənarda qalıb. Başqa sözlə, Azərbaycanın haqlı və ədalətli tələbləri, şərtləri bu ölkəni regiondakı irimiqyaslı layihələrdə oyundankənar vəziyyətə salıb. Ermənistan Azərbaycan torpaqlarını işğal və qonşu dövlətlərə qarşı əsassız iddialarla çıxış etməsəydi, həmin layihələrdə iştirak etməklə daha çox qazana bilərdi. 44 günlük müharibə sübut etdi ki, işğalçı dövlət 30 ilə yaxın müddət ərzində o torpaqlarda daşı-daş üstünə qoymayıb. Həmin ərazilərdəki tikililəri dağıtmaq, yeraltı sərvətlərini qanunsuz talan etmək və s. qanunazidd əməllərlə məşğul olub. İşğalçılığı və təcavüzkar siyasəti Ermənistana uğur gətirmədiyi kimi, Azərbaycan torpaqlarındakı bu sayaq qanunsuz fəaliyyəti faydalı olmadı. İkinci Qarabağ müharibəsi Ermənistan hakimiyyəti və cəmiyyətini reallığı görmək üçün silkələdi. Reallıq isə işğalçılıq və pozuculuq fəaliyyətindən əl çəkib, regionda əməkdaşlıq etməkdən ibarətdir".

**Siyasi şərhçiyə görə, İran və Ermənistan tutduqları mövqe ilə "altılıq platforma"sında əməkdaşlığı bir il gecikdirdi:** "Ona görə də təşəbbüsün gerçəkləşməsi ləngidi. Ancaq son zamanlar rəsmi Tehran və İrəvan bu formatda əməkdaşlığın faydalarını görməyə başlayıb. Gürcüstanın "3+3"də iştirak etməməsi müəyyən mənada başadüşüləndir. Rəsmi Tbilisi iddia edir ki, Rusiya ilə diplomatik əlaqəsi olmadığından onunla bir formatda əməkdaşlıq etmək istəmir. Əslində, bu, Gürcüstanın bəhs etdiymiz platformada əməkdaşlığı dolayı yolla qəbul etməsi kimi də başa düşülə bilər. Çünki bu ölkə regional əməkdaşlığın faydasını başqa layihələrin icrasında görüb. Bu baxımdan perspektivdə rəsmi Tbilisinin bu formata qoşulacağı istisna olunmur. Dünyanın siyasi səhnəsində mühüm rol oynayan Türkiyə, İran və Rusiyanın bu platformada iştirakı "3+3"ün cəlbediciliyindən xəbər verir. Rəsmi Ankara, Tehran və Moskvanın yeni əməkdaşlıq formatı yaratması mümkün regional münaqişələrin qarşısının alınmasına, bölgədə davamlı sülhün yaradılmasına inamı artırır".

S.Soltan qeyd edib ki, Ermənistanın bu formatda iştirakı perspektivdə Türkiyə ilə sərhədlərin açılmasına təkan verə bilər: "Ermənilərin Türkiyəyə qarşı saxta iddialarının, türk düşmənçiliyinin qarşısının alınmasına yardım edər. "3+3" platforması həm də Zəngəzur dəhlizinin fəaliyyətə başlamasına təkan ola bilər. Bu dəhlizin açılması isə "altılıq" formatının potensialının reallaşmasına böyük dəstək olar. Beləliklə, müharibələr sülhlə başa çatır. Savaşlar bitəndən sonra düşmən tərəflər bir-biri ilə əməkdaşlıq edirlər".

**İsmayıl**

# İnternet televiziyaların lisenziya alması könüllü olacaq

## Onlar kabel şəbəkəsinə qoşulmaq istəsələr də, bununla bağlı KATV-nin də öz tələbləri var



**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz Milli Məclisdə "Media haqqında" qanun layihəsinin müzakirəsi zamanı bir məqama etirazını bildirib.**

Ekspert bildirib ki, "Media haqqında" qanun layihəsi onlayn medianin inkşafına əngəl ola bilər. Onun sözlərinə görə, Azərbaycanda ilk dəfə onlayn medianın tənzimlənməsinə diqqət yetirilib. Lakin yeni sənəddə onlayn media tənzimlənməsi ifrat dərəcədə olub: "Onlayn medianın adı qanun layihəsində veb-sayt kimi yazılıb. Amma bu, qanunvericilikdə yoxdur. Nəzərə almaq lazımdır ki, onlayn mediada biznes var və mövcud yanaşma tərzi bu sahənin inkişafının əngəllənməsinə səbəb ola bilər. Onlayn medianın lisenziya alması fikri də başadüşülən deyil. Əgər internet televiziyaları üçün dövlət tezliyi yoxdursa, nə lisenziyalaşdırılacaq?! Bu, irəliyə yox, geriyə addım atmaqdır. Əslində, bu layihənin qəbulu ilə inkişafdan söhbət getməlidir. Lakin məhdudiyyət hiss edirəm və bu inkişaf, media qurumlarına pul qazanmağa imkan verməyəcək. Media müstəqil olmağı sevir. Yeni sənəddə internet televiziyaları üçün çox risklər var. Halbuki, qlobal dünyanın tərkib hissəsiyik. Yeni layihəni oxumamışdan əvvəl bir çox ölkənin, eləcə də Ukraynanın bu sahədəki qanunvericiliyinin 70 faiz hissəsini müşahidə etdim".

Parlament sədrinin birinci müavini Əli Hüseynli isə ekspertə cavab olaraq qeyd edib ki, "Media haqqında" qanun layihəsinin hazırlanmasında Ukrayna təcrübəsindən istifadə edilməyib: "Beynəlxalq təcrübə var və bu, oxşarlıq təşkil edə bilər".

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov da bildirib ki, kanalların məcburi lisenziyalaşdırılmasından söhbət getmir. Sədrin sözlərinə görə, Azərbaycanda internet televiziyalarının lisenziya alması məsələsi könüllüdür:** "Ölkədə internet televiziyalarının sayı çoxdur. Onlar kabel şəbəkəsinə qoşulmaq istəsələr də, bununla bağlı KATV-nin də öz tələbləri var. Bu sahədə müəyyən boşluqlar var. Bu boşluğu aradan qaldırmaq, yeni imkanlar yaratmaq üçün lisenziya məsələsi qanuna daxil edilib. Kanalların məcburi lisenziyalaşdırılmasından söhbət getmir. Platforma yayımçısı statusu alan hər internet televiziyası peykə çıxa bilməz. Yerüstü televiziya kanallarının 85 faizi peykdən televiziya siqnalı alır. Peykdə artıq məhdudlaşdırma var. Çünki bu bir resursdur".

*MTRŞ sədri əlavə edib ki, əgər bir şəxs haqqında televiziya və radioda hansısa məlumat gedirsə və bu, həmin şəxsin xoşuna gəlmirsə, ondan narazıdırsa, operativ qaydada məhkəməyə müraciət edilməlidir:* "Əks halda bu şikayət edilə bilməyəcək. Kimsə gedib evində oturur, birdən yadına düşür ki, 3 il əvvəl hansısa saytda, kanalda onunla bağlı nəsə məlumat getmişdi. Bu şikayət 1 ay ərzində verilə biləcək. Televiziyada, saytlarda söyüş olmamalıdır. Əvvəlki qanunlarda bu cərimələr daha sərt idi. İndiki qanunda bunu bir az yumşaltmışıq və 24 saat onun yayımına məhdudiyyət qoyulacaq".

**İsmayıl Qocayev**

# Reyestrə daxil olmuş jurnalistlərə vahid vəsiqələr veriləcək

## "Media haqqında" qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir

İsmayıl Qocayev

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu ilə İnsan hüquqları komitələrinin birgə keçirilən iclasında "Media haqqında" qanun layihəsinin müzakirəsi keçirilib. Müzakirədə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, deputatlar, media qurumlarının rəhbərləri və digər şəxslər iştirak ediblər.**

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Media haqqında" qanun layihəsinin qanunvericilik baxımdan mükəmməl hazırlandığını deyib. Komitə sədri bildirib ki, yeni layihə ilə bağlı işçi qrupları çərçivəsində bir çox görüşlər və müzakirələrin keçirilməsi nəzərdə tutulub: "Əsas hədəf odur ki, yeni qanun layihəsi qanunvericilik və hüquqi baxımdan, eləcə də cəmiyyəti qaneedəcək səviyyədə olsun".

**"Media haqqında" qanun layihəsi 9 fəsil və 78 maddədən ibarətdir**

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, "Media haqqında" qanun layihəsi 9 fəsil və 78 maddədən ibarətdir.** Komitə sədri qeyd edib ki, layihədə prinsipial məsələlərdən biri media subyektlərinin dairəsidir: "Mühüm məsələlərdən biri də media subyekti sayılmaq üçün tələblərlə bağlıdır. Layihədə informasiya oğurluğunun qarşısını almaq üçün müddəalar əksini tapıb. Layihəyə əsasən, media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə biləcək. Reyestrdə olmayan jurnalistlərin jurnalist sayılmayacağı ilə bağlı layihədə heç bir müddəa yoxdur. Jurnalistin azad fəaliyyəti layihədə əsas müddəalar sırasındadır. Jurnalistlərin nəqliyyatdan pulsuz istifadəsi, ipoteka və sosial kreditlərdən yararlanması yaxşı olardı. Dünyada medianın qanuni yolla maliyyələşməsinin bir çox yolları var".

**"Yeni qanun media mühitini sağlamlaşdıracaq"**

**Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov isə vurğulayıb ki, yeni qanun media mühitini sağlamlaşdıracaq.** Onun sözlərinə görə, Azərbaycanda yeni hazırlanan "Media haqqında" qanun layihəsinin hazırlanmasının məqsədi informasiya təhlükəsizliyini artırmaq, medianın fəaliyyətini inkişaf etdirmək və stimullaşdırmaqdır: "Media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsini təcəssüm etdirir. "Media haqqında" qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir. Yeni qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını verir və eyni zamanda jurnalistin sosial portretini müəyyənləşdirən vasitə kimi çıxış edir. "Media haqqında" qanun layihəsi dövlət-media münasibətlərində əsas elementlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə öz töhfəsini verəcək".

**"Reyestrə daxil edilmiş jurnalistlərə vəsiqənin verilməsi nəzərdə tutulur"**

**Əhməd İsmayılov qanun layihəsinə əsasən Media Reyestrinin yaradılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb:** "Reyestr jurnalistlərin və media subyektlərinin dairəsini müəyyənləşdirməklə onların inkişafına dəstək verməyə imkan verəcək. Reyestrə daxil edilmiş jurnalistlərə vəsiqənin verilməsi nəzərdə tutulur. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunması könüllülük prinsipi əsasında həyata keçirilsə də, media mühitinin sağlamlaşmasına müsbət təsir göstərəcək".

**"Copy-paste" jurnalistikasıyla mübarizə aparılacaq"**

**Medianın İnkişafı Agentliyinin icraçı direktoru bəyan edib ki, hazırda "KİV haqqında" qanunda mövcud olan və müasir çağırışlara cavab verməyən anlayışlar yenidən işlənib:** "Yeni layihə xidmət müqaviləsi ilə fəaliyyət göstərən jurnalistləri də jurnalist hesab edir. "Media haqqında" qanun layihəsi "copy-paste" jurnalistikası ilə mübarizə aparmaq yolları da ehtiva edilib. Beləliklə, "copy-paste" jurnalistikasıyla da mübarizə aparılacaq".

**"Media barəsində qanunvericiliyin qəbulundan 20 il keçib"**

**Mətbuat Şurasının sədri Əflatun Amaşov da "Media haqqında" qanun layihəsini dəstəkləyib. Vurğulayıb ki, yeni qanun layihəsi özündə yenilikləri ehtiva edir:** "Cənubi Qafqaz ölkələrinin və bir sıra dövlətlərin qanunvericiliyinə bələdəm. İndiki qanun layihəsi onlara bərabər və ən yaxşı qanunvericilik olacaq. Hətta onları da qabaqlayacaq. Media barəsində qanunvericiliyin qəbulundan 20 il keçib, müəyyən dəyişikliklər olsa da, bir sıra məqamlar açıq qalıb. Yeni layihə həmin açıq məqamları nəzərə alıb. Bir sıra hallarda Mətbuat Şurasına müraciət olurdu və müzakirələr zamanı bəzi məqamları hüquqi baxımdan mübahisələndirə bilmirdik. Çünki bir çox saytların nizamnaməsində xəbərlə bağlı müəyyən müddəalar yox idi. Yeni sənəddə onlayn media geniş anlamda media subyektlərinə daxil edilib. İndiyədək Mətbuat Şurasına 16 mindən çox şikayət daxil olub. Onların hamısı məhkəməyə ünvanlansaydı, medianın vəziyyəti necə ola bilərdi?!".



"Cibində jurnalist vəsiqəsi gəzdirən 25 mindən çox şəxs var. Yeni qanun qəbul olunandan sonra vəsiqələrin sayı heç 2000-dən çox olmayacaq"

MŞ rəhbəri bildirib ki, bəzi şəxslər öz mənafelərinə görə qəzet və ya sayt açırdı və onlara təzyiq göstərmək mümkün deyildi: "Ona görə də çap mediası ilə bağlı qanun layihəsinə əlavə edilən hissə alqışa layiqdir. Hətta ayrı-ayrı dövlət qurumlarının da öz saytları olurdu. Buna görə də öz xəbərlərini hansısa qəzetə reklam qarşılığında vermək istəmirdilər. Özləri qəzet çap etdirib xəbərlərini məhz orada dərc etdirirdilər. Yeni layihədə dövlət qurumlarının özlərinin hər hansısa sayt yarada bilməmələri ilə bağlı müddəa yer alıb".

Ə.Amaşov əlavə edib ki, qanunun əsas mahiyyəti reyestrin yaradılmasının qabarıq formada göstərilməsidir: "Rəsmi statistikaya görə, ölkədə 6000-ə yaxın KİV fəaliyyət göstərir: Dəqiq araşdırma isə göstərir ki, bu rəqəm 8000-dir. Ayrı-ayrı insanlar özləri üçün sayt və qəzet açıb ayda bir dəfə xəbər yayırlar. Həmin qəzetləri də qoltuğuna vurub qapı-qapı gəzirlər. Reyestrin yaradılması bu kimi halların qarşısını almış olacaq. Digər mühüm məqam vəsiqələrin verilməsi ilə bağlıdır. Bu gün Azərbaycanda cibində jurnalist vəsiqəsi gəzdirən 25 mindən çox şəxs var. Yeni qanun qəbul olunandan sonra vəsiqələrin sayı heç 2000-dən çox olmayacaq".

**"Jurnalistlərin çoxu bu işə biznes sahəsi kimi yanaşır"**

**Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli bəyan edib ki, Azərbaycanda 28 minədək jurnalist adı altında fəaliyyət göstərən şəxs var:** "Halbuki, onların çoxu bu işə biznes sahəsi kimi yanaşıb işləyir. Həmin şəxslər bu işə öz metodologiyaları ilə yanaşır. Onlar bu sahədə öz birjalarını qurub, bizneslərini yaradırlar. Yeni layihənin bir çox üstünlükləri olsa da, bəzi narahatlıq yaradan məqamlar da var. Misal olaraq, media barəsində hazırkı qanunvericilikdə media üzərində senzuranın yolverilməzliyi barədə müddəa var. Lakin bəzi istisna məqamlarda senzuranın olması qəbuledilləndir. Bu hal ölkənin fövqəladə və hərbi vəziyyət zamanına aiddir. Ona görə də belə istisna hallar mütləq qeyd olunmalıdır ki, Avropada qınaq obyektinə çevrilməyək". M.Ələsgərli eyni zamanda, media sahəsində cinayətə yol verib tutulan və azadlığa çıxan şəxslərin yenidən bu sektorda fəaliyyət göstərməsi üçün qoyulan məhdudiyyəti məqbul hesab edib: "Məhdudiyyətlərin qoyulması üçün bu istisna halın olması qeyd olunmalıdır".

**"Jurnalistlər test yolu ilə yoxlamadan keçirilsin"**

**Millət vəkili Qüdrət Həsənquliyev jurnalist vəsiqəsinin test yolu ilə verilməsini təklif edib. Deputatın sözlərinə görə, jurnalistlərə dair tələblər ciddiləşdirilməlidir:** "Vəkillər test verir, sonra vəkillik hüququ qazanır: "Eyni zamanda, jurnalistlər də test yolu ilə vəsiqə ala bilsin. Ən azından test yolu ilə onların ilkin bilikləri yoxlanılsın. Bundan başqa, ağır və xüsusilə ağır cinayət törətmiş şəxslərin media subyekti olmayacağı ilə bağlı layihədə maddə var. Amma məhkumluq üzərindən götürüləndən sonra o adam azad insan sayılır. Bu maddəni götürməliyik. Digər tərəfdən, siyasi partiyalar çap mediası istisna olmaqla media subyekti yarada bilməyəcək. Amma burda bir məntiq görmürəm, çünki bütün media subyektləri informasiya yaymaqla məşğuldurlar".

**"Mətbuat nümayəndələri attestasiyadan keçirilməlidir"**

**Deputat Elman Nəsirov da deyib ki, mətbuat nümayəndələri attestasiyadan keçirilməlidir:** "Media haqqında" qanun layihəsinin yaradılması zəruri idi. Çünki köhnə qanunun qəbul edilməsindən uzun zaman keçib. Artıq ölkədə yeni reallıqlar yaranıb. Odur ki, qalib dövlətin informasiya sistemi qalib dövlətin adına layiq olmalıdır". O, mətbuat nümayəndələrinin attestasiyadan keçirilməsinin məqbul olduğunu bildirib: "Jurnalistlərdən bəziləri müəyyən yollarla bu peşəyə gəlib. Bu gün həm ölkədaxili, həm də beynəlxalq arenaya ölkə həqiqətlərini çatdıran kifayət qədər mətbuat nümayəndələri var. Lakin beynəlxalq auditoriya üçün çalışan xarici dilləri bilən jurnalistlərə böyük tələbat var".

**"Regionlarda reket jurnalistikaya qarşı mübarizə aparılmalıdır"**

**Millət vəkili Naqif Həmzəyev bildirib ki, regionlarda reket jurnalistikaya qarşı mübarizə aparılmalıdır. O qeyd edib ki, bölgələrdəki ali məktəblərə Jurnalistika fakültəsi yoxdur:** "Bu, regionlarda medianın inkişafına mənfi təsir göstərir. "Media haqqında" qanun layihəsinə regionlarda jurnalistikanın inkişafı ilə bağlı müddəanın əlavə edilməsi yaxşı olardı. Regionlarda reket jurnalistikaya qarşı mübarizə aparılmalıdır. Regionlarda yalançı jurnalist vəsiqsi ilə gəzən kifayət qədər şəxslər var. Onlara qarşı tədbirlər görmək zəruridir. Düşünürəm ki, qanun layihəsi media üçün çox faydalı olacaq".

Müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.



# Paşinyan sülhə qarşı olanları cəzalandırır

## Azərbaycanın qaytardığı əsir ermənilərin dərhal həbsi həm də revanşistlərə bir mesajdır

İsmayıl Qocayev

**Ermənistanın hüquq-mühafizə orqanları dekabrın 4-də Azərbaycanın təhvil verdiyi 10 erməni hərbçidən 5-ni saxlayıblar. Ermənistan İstintaq Komitəsinin mətbuat katibi Vardan Tadevosyan bildirib ki, hərbçilərin həbsi ilə bağlı məhkəməyə vəsatətlər verilib:**

"Hazırda ağır nəticələrə səbəb olan hərbi xidmət və döyüş növbətçiliyi qaydalarının pozulması faktı üzrə açılmış cinayət işi çərçivəsində 5 hərbçi saxlanılıb". Məlumat üçün deyək ki, bu yaxınlarda Ermənistan parlamentinin sədri Alen Simonyan qalmaqallı video ilə gündəmə gəlmişdi. Simonyan tədbirlərin birində erməni əsirlərin artıq onun üçün mövcud olmadığını bildirmiş, onların "silahı yerə qoyan, qaçan insanlar" odluğunu demişdi: "Yaxınları bilir ki, onlar dezertirdirlər, onlar silahı yerə qoyub, qaçıb və əsir düşüblər". Hərbçilərin valideynləri isə spikerin açıqlamasına sərt etiraz bildirmişdilər. Hərbçilərin yaxınları indi də onların həbsinə etiraz edir, hökumətin məsuliyyəti öz boynundan atmaq üçün şərböhtan kampaniyasına başladığını deyirlər. Bəzi erməni ekspertlər də İrəvanın yalvar-yaxarla, himayədarlarına dil tökməklə aldıqları erməni hərbçilərin "cəzalandırılmasına" qarşı çıxıblar.

**Siyasi şərhçi Anar İmanov "Şərq"ə açıqlamasında deyib ki, əsir düşmüş erməni hərbçilərin cəzalandırılmasının səbəbləri var. Analitikə görə, erməni hərbçilər Nikol Paşinyanın deyil, kənar qüvvələrin əmrləri ilə hərəkət etdikləri üçün həbs olunublar:** "İstintaq Komitəsinin mətbuat katibi Vardan Tadevosyan "hərbi xidmət və döyüş növbətçiliyi qaydalarının pozulması" faktı üzrə cinayət işi açıldığını deyib. Buradan anlaşılan odur ki, hərbçilər Paşinyan hökumətindən xəbərsiz, kənar dairələrin təlimatı ilə təxribatlar törədiblər. Nikol Paşinyan hərbçiləri həbs etməklə diqqəti buna yönəltməyə çalışır. Çünki əks halda özünün çıxılmaz duruma düşəcəyinin fərqindədir. Baş nazir bir tərəfdən ağızdolusu sülhdən danışır, başqa tərəfdən isə ermənilər əsgərlərimizə hücum edirlər. Görünür, Paşinyan hökuməti özbaşına hərəkət etmiş erməni hərbçilərini cəzalandırmaqla həm də onların arxasında duran güclərə mesaj vermək istəyir. Göstərir ki, o, həqiqətən sülh tərəfdarıdır və sülhə qarşı olanlar cəzalandırılır. Eyni zamanda Paşinyan anlayır ki, Ermənistan ordusu darmadağın olub və yeni müharibəyə, hərbi qarşıdurmaya hazır deyil. Davamlı təxribatlar isə Azərbaycanın səbr kasasını daşdıra bilər".



# Təxribatlar davam etsə Brüssel görüşü təxirə salına bilər

## Paşinyan hökumətinin davranışları göstərir ki, yaxın zamanda öhdəlikləri yerinə yetirməyəcəklər

**Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonu ərazisində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirməklə növbəti təxribata əl atıb.**

Bu barədə "Şərq"ə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Qarşı tərəf dekabrın 10-u saat 12:00-dan etibarən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəş altında saxlamağa cəhd edib. Bölmələrimiz tərəfindən qısa müddət ərzində görülən cavab tədbirləri nəticəsində qarşı tərəf susdurularaq, onun təxribat xarakterli fəaliyyətləri dayandırılıb. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Artıq bir neçə gündür, Ermənistanın aramsız təxribatları səngimir. Məxsusi olaraq dekabrın 15-i Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın görüşündən öncə bu cür təxribatlara əl atılması göstərir ki, qarşı tərəf öz çirkin, məkrli siyasətindən əl çəkmir. Ermənistan hökuməti anlamalıdır ki, artıq qarşılarında 1991-ci ildə müstəqilliyini yeni qazanmış Azərbaycan yoxdur. "Odlar Yurdu" Vətən savaşında öz gücünü, qüdrətini bütün dünyaya göstərdi. Bütün hallarda vəziyyət Ermənistanın əleyhinə işləyir. Təxribatlara davam etməsi onun siyasi, iqtisadi və hərbi tənəzzülünü daha da sürətləndirəcək.

**Təxribatların məqsədini "Şərq"ə şərh edən Siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti (BDU) "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti Mətin Məmmədli bildirib ki, Ermənistan təxribatlarla təzyiq göstərməyə çalışır:**

"Təxribatlar getdikcə artır. Ermənistan hökumətinin yol verdiyi bu yanlış davranışlar Brüssel görüşünə təsirsiz ötüşməyəcək.

Əlavə olaraq, ötən ilin 10 noyabrında Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış bəyannamədə qeyd olunan öhdəlikləri yerinə yetirmir. Paşinyan hökumətinin rəsmi mövqeyi göstərir ki, yaxın zamanda da bu öhdəlikləri yerinə yetirməyəcəklər. Ermənistan davranışlarını düzəltməsə, təxribatlara bu tempdə davam etsə, görüş təxirə salına bilər".

Xanlar ƏLİBƏY

# Kreml sülhə yox, sərhədlərin müəyyənləşməsinə tələsir

## Gürcüstana ehtiyac duymadan Ermənistanla birbaşa quru əlaqəsinin yaranması Rusiya üçün böyük avantajdır




İsmayıl Qocayev

**"Rusiya həm Bakı, həm də İrəvanla təmasdadır. Biz Cənubi Qafqazda sərhəd mübahisələrinin həlli, nəqliyyat yollarının açılması istiqamətində çalışırıq". Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib. Rusiya rəsmisi deyib ki, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası, sonra isə demarkasiyası üçün ikitərəfli komissiya yaratmaq istiqamətində işlər görülməlidir:**

"Moskva komissiyaya hər ölkədən nümayəndə heyətlərinin tezliklə təyin olunmasını gözləyir". Zaxarova həmçinin bildirib ki, üçtərəfli işçi qrup çərçivəsində regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üçün səylər davam etdirilir. Xatırladaq ki, ötən gün Rusiyanın Xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla telefon danışığı zamanı da Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası işlərinin tezliklə başlanmasının zərurətindən söz açıb. Lavrov əlavə edib ki, nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması üzrə əldə edilmiş razılaşmaların praktiki müstəviyə keçməsi labüddür. Görünən odur ki, Rusiya son günlər müəyyən səbəblərdən sərhədlərin müəyyənləşməsi məsələsinə xüsusi diqqət ayırır.

**Moskvanın tələskənliyini "Şərq"ə analiz edən politoloq Əhəd Məmmədli deyib ki, indiki şəraitdə regional kommunikasiyaların açılması Rusiyanın maraqlarına uyğundur.** Siyasi şərhçinin sözlərinə görə, Gürcüstana ehtiyac duymadan Ermənistanla birbaşa quru əlaqəsinin yaranması Rusiya üçün böyük avantajdır: "Regional nəqliyyat dəhlizləri Kremlin bölgədəki mövqelərini gücləndirəcək. O baxımdan Moskva maraqlıdır ki, tez zamanda nəqliyyat kommunikasiyaları qurulsun və Rusiyanın nəzarətində olsun. Əlbəttə, Rusiyanın başqa siyasi məqsədləri var. Moskva Azərbaycan-Ermənistan arasında yekun sülh müqaviləsinin, Qarabağın dağlıq hissəsinin taleyi ilə maraqlanmır. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması prosesində tələskənlik etmir. Sadəcə, məcburiyyət qarşısında sərhədlərin müəyyən olunmasından danışır ki, bunu da regional kommunikasiyaların bərpası üçün edir. Azərbaycan-Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası başa çatmadan bölgədə bütün dövlətlərin iştirakı ilə regional iqtisadi əməkdaşlıq mümkünsüzdür. Moskva onu da anlayır ki, Azərbaycan-Ermənistan arasında yekun sülh müqaviləsindən sonra Kreml Cənubi Qafqazda orbitr rolunu oynaya bilməyəcək. Bu isə Rusiyanın siyasi və strateji maraqlarına cavab vermir. Ona görə də konkret bir məsələdən yapışaraq, digər məqamları arxa plana atırlar".

# "Bəzi insanlar bir neçə xarici dil bilməsiylə öyünürlər"

## Anar: "Azərbaycanda yaşayan adamlar dövlət dilimizi bilsələr, bu, günahdır?"

Hazırladı: Məlahət Rzayeva

**Mətbuat Şurası və Yazıçılar Birliyinin təşəbbüsü ilə "Azərbaycan dilindən düzgün istifadə: ədəbi-bədii mühit və media" mövzusunda bir neçə gün öncə keçirilmiş "dəyirmi masa" ana dilimizin mövcud durumunu ortaya qoydu. Xatırladaq ki, "dəyirmi masa"da yazıçı-dramaturq Seyran Səxavət məruzə ilə çıxış etmişdi.**

Məruzəsində S.Səxavət təxminən ay yarım müddətində yerli telekanallarda apardığı müşahidələr, topladığı faktlar əsasında ədəbi dilimizin necə korlandığını göstərirdi. **Mövzunun vacibliyini nəzərə alıb Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara müraciət etdik: Xalq yazıçısı dilimizin xilası üçün nə təklif edir?**

İlk sualımız da bu oldu:

**- Anar müəllim, efiri izləməyə vaxtınız, marağınız varmı? İzləyirsinizsə hansı dil, üslub nöqsanlarını müşahidə edirsiniz?**

- Efiri, əfsus ki, mütəmadi izləyə bilmirəm. Əsasən son xəbərlərə baxıram... Azərbaycan dilinə həsr olunmuş "dəyirmi masa"nın keçirilməsini vacib məsələ hesab edirəm. Seyran Səxavətin dilimizin vəziyyətilə bağlı bir növ həyəcan təbili çalmasını başa düşür və buna haqq qazandırıram. Dilimizin taleyi daima ziyalılarımızı, o cümlədən bəlkə ilk növbədə yazıçılarımızı düşündürən önəmli milli məsələlərdəndir. Seyranın dilimizin eybəcər şəkildə pozulmasıyla bağlı gətirdiyi sitatlar məni də çox üzdü. Hələ keçən yüzillikdə Milli Məclisin mədəniyyət komissiyasının sədri olduğum zaman dilimizin qorunması haqqında qanunu böyük çətinliklə keçirə bildik. Dil qanununun hazırlanmasında görkəmli alim Nizami Cəfərovun böyük xidməti oldu. Amma bəzi deputatlar, müzakirələrə qoşulmuş alimlər qanun layihəsiylə bağlı müxtəlif mülahizələr irəli sürürdülər və bu da qanunun qəbul olunmasını ləngidirdi. Bəziləri isə məsələni dolaşdıraraq, guya, bu qanunun milli azlıqlar tərəfindən pis qarşılanacağını deyirdilər. Layihədə işlənən türk sözünə də etiraz edirdilər. Xoşbəxtlikdən elə bu zaman Ulu Öndər dil haqqında fərman imzaladı və bu fərmanda dilimizin türk dil qrupuna aid olduğu bir daha təsdiqləndi. Bundan sonra hazırladığımız qanun da üç oxunuşda Milli Məclisdən keçdi və Prezident tərəfindən qanun şəklində imzalandı. Ölkəmiz 100 il rus imperiyasının, 70 il Sovet İttifaqının tərkibində qalmışdı və bu vaxt ərzində dilimizə ən çox beş-on rus kəlməsi daxil olmuşdu (kolxoz, sovxoz, komsomol və bu qəbildən sözlər. Radio, futbol, kino kimi sözlər isə bütün dillərdə səslənən beynəlxalq anlayışlardır). Amma istiqlaliyyətimizin ilk illərində dilimizə onlarla ingilis sözü girdi, dükanlar marketə çevrildi, kainat "Space" oldu, şirkətlər holdinqlərə döndü. Dilimizin bu sayaq "beynəlmiləlçiliyə" düçar olmasını əyani görmək istəyirsinizsə, TV kanallarını açın, qəzetlərin adlarına baxın, Bakının küçələrini dolaşın. Yalnız Bakını yox, başqa şəhərlərimizi də gəzin, binaları, divarları bəzəyən yazılara baxın - bilməyəcəksiniz hardasınız - ABŞ-ın hansı şəhərində, Hyustonda, ya Dallasda?

**- Anar müəllim, şadlıq saraylarına verilən əcnəbi adlar, reklam lövhələrinin əcnəbi dillərdə yazılması... bunlar barədə Milli Məclisdə də danışılıb, etiraz bildirilib, amma yenə də bir nəticə yoxdur...**

- Baxın, Dil qanununda göstərilirdi ki, hər hansı reklam xarici dildən öncə Azərbaycan dilində yazılmalıdır. İndi görün bu qanuna nə dərəcədə riayət olunur. Reklam verənlərin zövqünə uyğun olaraq dilimizi bərbad hala salmaq rəvadırmı?

> "TV kanalların açın, qəzetlərin adlarına baxın, Bakının küçələrini dolaşın. Yalnız Bakını yox, başqa şəhərlərimizi də gəzin, binaları, divarları bəzəyən yazılara baxın - bilməyəcəksiniz hardasınız - ABŞ-ın hansı şəhərində, Hyustonda, ya Dallasda?"



Məgər bu reklam verənlərin özləri öz mallarının daha səlis, daha dürüst Azərbaycan dilində təbliğ olunmasını istəməzlərmi? Hələ özəl radiolarda "helloları", "bay-bayları" "qudbayları" demirəm. Hansı dildir bu? Azərbaycan dili? Yox. İngilis dili? O da yox. Qarışıq, pozuq, mənasız-mətləbsiz bir ləhcədir. O vaxt dediklərimi bir daha təkrar etmək istəyirəm. Dil qanunu əsla milli azlıqların hüquqlarına qarşı deyil, ruslara qarşı da yönəlməyib. Rusiya Duması rus dilini bilməyənlərin Rusiya vətəndaşı ola bilməməsi haqqında qanun qəbul edib. Gürcüstanda yaşayan azərbaycanlılar gürcü dilini bilir. Vaxtilə Ermənistanda öz dədə-baba torpaqlarında yaşayan soydaşlarımız erməni dilini də bilirdilər. Azərbaycanda yaşayan adamlar Dövlət dilimizi bilsələr bu günahdı? Qalsın başqa millətlər, öz millətimizə mənsub olan bəzi insanlar neçə xarici dil bilmələriylə öyünürlər. Öyrəndikləri, bildikləri dillər sırasında Azərbaycan dili də olsa bunun nəyi pisdir? Hörmətli Prezidentimizdən ibrət götürsünlər. Neçə xarici dili mükəmməl bilən İlham Əliyev Azərbaycan dilində elə səlis danışır, elə zəngin söz ehtiyatına malikdir, yerli-yerində elə sırf xalq ifadələri işlədir ki, şəxsən mən mat qalıram: axı bu adam orta təhsilini də, ali təhsilini də rus dilində alıb. Deməli, doğma millətin qarşısında məsuliyyət hissin varsa, onun dilinə də - Ana dilinə də hörmət və məhəbbətlə yanaşmalısan. Gündən-günə müasirləşən Bakımızda İçərişəhər bir növ tarixlərin yadigarıdır. İçərişəhərin qədim abidəsini "Art garden" adlandırıblar. Niyə? Əgər sovet vaxtında İçərişəhərdə bir tarixi abidə rus dilində, məsələn, "Zimni sad", yaxud "Sad uskusstv" adlandırılsaydı, bu, absurd kimi görünərdi. Deyirlər ki, dilimizə yad əcnəbi adlar xarici turistləri cəlb etmək üçündür. İngiltərəyə, Fransaya, İtaliyaya turistlər Azərbaycandan qat-qat çox gəlir. Məgər Londonda "Hayd park"ın adını dəyişib şərqli turistlərə xoş gəlməkçün, tutalım, "Gülüstani-İrəm" qoyurlar? Eləcə də Fransada, İtaliyada, İspaniyada bütün adlar, reklamlar ilk növbədə öz dillərindədir.

> "Hələ özəl radiolarda "helloları", "bay-bayları" "qudbayları" demirəm. Hansı dildir bu? Azərbaycan dili? Yox. İngilis dili? O da yox. Qarışıq, pozuq, mənasız-mətləbsiz bir ləhcədir"

**- Əsas məsələlərdən biri də bu nöqsanların, qüsurların qarşısının necə alına biləcəyidir. Seyran müəllim televiziyaların cərimə olunmasını təklif edib. Sizcə, cərimələr effektli olarmı?**

- Cərimə məsələsinə gəldikdə bu barədə ciddi düşünmək lazımdır. Bu cəriməni kim, ya kimlər, necə və hansı meyarlarla təyin edəcək? "Dilimizin reanimasiya olması" da (sitat Seyran Səxavətə məxsusdur - M.R.) bir qədər şişirdilmiş ifadədir. Azəri türkcəsi min illərin ərəb, fars, rus təsirlərinə sinə gərərək sağ-salamat qalıbsa, bundan sonra da hər hansı "ingilis xəstəliyinə" yoluxmayacaq. Təhlükə dil baxımından savadsızlıqdadır, sözlərin mənasını, ifadələrin yerini bilməməkdə, cümlələrin nizamını pozmaqdadır. İllərdir mən bəzi cavan müəllifləri inandıra bilmirəm ki, "Gedirəm - Həsən dedi" yazmaq olmaz, bu ruscadan hərfi köçürmədir - kalkadır: "-İdu-skazal Qasan". Azərbaycan dilində bu cümlə "Həsən: - gedirəm - dedi" şəklində olmalıdır. Yoxsa elə çıxır ki, Məmməd getməliymiş, amma Həsən getdi. Yaxud illər boyu qulaqlarımızın alışdığı "dənizkənarı bulvar" da (ya park) rus dilindən kalkadır, mexaniki köçürmədir (primorski park). Azərbaycan dilində bura sahil bulvarı, ya sahil parkı adlandırılmalıdır. Dağüstü park nə deməkdir? Naqornı park! Azərbaycan dilində dağın zirvəsi, yamacı, ətəyi olar. Dağüstü demək olmaz. Mən illərdir Bakının bu müqəddəs yerini Şəhidlər dağı adlandırmağı təklif edirəm. Dağ sözünün hər iki mənasında - həm yüksəklik, həm də xalqın bağrına çəkilmiş dağ mənasında. Yaxşı olardı ki, dilimizin qorunmasıyla bağlı yazıçıların, jurnalistlərin, alimlərin, deputatların, məmurların, lap elə reklamverənlərin iştirakıyla geniş bir müşavirə keçiriləydi. Seyran Səxavət də bu müşavirədə məruzəylə çıxış edə bilərdi.

# Nazarbayev Azərbaycanı Avrasiya İqtisadi İttifaqına çəkmək istəyir

## Ekspertlər isə hesab edir ki, ölkəmizin Rusiyanın rəhbərlik etdiyi birlikdə təmsil olunması arzuolunan deyil



**Qazaxıstanın eks-prezidenti Nursultan Nazarbayev Avrasiya İqtisadi İttifaqında Azərbaycanın quruma üzvlük məsələsindən danışıb. Nazarbayev bildirib ki, Azərbaycanın Avrasiya İqtisadi İttifaqında müşahidəçi statusunun verilməsi təklif olunur.**

Onun sözlərinə görə, quruma müşahidəçi kimi qatılan Özbəkistan digərlərinə stimul olmalıdır. Azərbaycanın Rusiyanın təşəbbüsü ilə yaradılan KTMT və Avrasiya İqtisadi Birliyi kimi təşkilatlara üzvlüyü uzun zaman müzakirə mövzusu olub. Ekspertlər bir sıra səbəblərdən buna qarşı çıxıb. Vurğulayıblar ki, mümkün qədər Moskvanın himayəsində olan təşkilatlardan uzaq durmaq lazımdır.

Ancaq indi bəzi ekspertlər hesab edirlər ki, sərhədlərin müəyyən edilməsindən sonra bu kimi təşkilatlarda uyğun statuslarda yer almaq olar. Ən azından Nazarbayevin dediyi kimi müşahidəçi statusunu almaq mümkündür.

**Azərbaycanla bağlı təklifi "Şərq"ə dəyərləndirən Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli öncə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlük məsələsinin mütəmadi gündəmə gəlməsindən danışıb.** Partiya rəsmisi qeyd edib ki, adının cəlbedici olmasına baxmayaraq, KTMT hələlik öz sıralarına yeni üzvlər cəlb edə bilmir: "Alyans yarandığı ilk gündən, 1992-ci ildən bu yana sönük və monoton təşkilat olaraq tanınır. KTMT-yə üzv olan dövlətlərin bu qurumda qalmasının özlərinə uyğun obyektiv səbəbləri var idi. Bir sıra ölkələr təhlükəsizlik, digərləri iqtisadi baxımdan, qalanları isə total olaraq Moskvadan asılı idi. İkinci Qarabağ savaşı və ondan sonrakı dövrə nəzər yetirsək, keçmiş SSRİ ərazisində yeni situasiyanın formalaşdığını görmüş olarıq. Müharibədən öncə Moskvadan səsləndirilən "Azərbaycan KTMT üzvü olmalıdır" ifadələri indi "Azərbaycan qurumda müşahidəçi statusa maraq göstərir" sözləri ilə əvəzlənib".

*S.Əsədli bütün hallarda rəsmi Bakının KTMT-yə üzvlükdə maraqlı deyil:* "Avrasiya İqtisadi İttifaqı ilə bağlı da durum eynidir. Faktiki Rusiyanın rəhbərlik etdiyi İttifaqa Azərbaycanın daxil olması arzulanan deyil. Bu, siyasi cəhətdən yanlış olmaqla yanaşı, iqtisadi suverenliyimizə də xələl gətirər, təhlükə və riskləri artırar. Avrasiya İqtisadi İttifaqına üzvlük Azərbaycanın Avropaya inteqrasiya istiqamətində fəaliyyətinə də çətinliklər yaradacaq. Avropa İttifaqı ilə dərin və hərtərəfli azad ticarət sazişinin imzalanmasına əngəllər törədəcək. Bu da ölkəmizin beynəlxalq investisiya və ticarət əməkdaşlığından və inteqrasiyasından faydalarını azaldacaq".

İsmayıl Qocayev

# Bakıda eyni binada 3-cü intihar

## Daha bir qadın özünü atdı

**"Akkord"un Bakıxanov yaşayış kompleksindəki 5-ci binada qadın özünü yaşadığı binadan ataraq intihar edib.**

Bu barədə jurnalist Fərahim İlqaroğlu məlumat verib. O qeyd edib ki, bu hal son 3 ayda 3-cü dəfə baş verib:

"Son 3 ayda 3 nəfər bu kompleksdəki mənzilindən özünü ataraq intihar edib. Az qalsın anamın başına düşəcəkmiş, saniyə söhbəti olub. Allah rəhmət eləsin!".

*Qeyd edək ki, hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub.* Qadının meyiti məhkəmə Tibbi-Ekspertiza və Patoloji Anatomiya Birliyinə təhvil verilib.





# Krım, Donetsk, Luqansk kimi pis nümunələr var

## Qarabağda ayrıca rus icmasının yaradılması təşəbbüsü separatçılıq meylidir

İsmayıl Qocayev

**Məlum olduğu kimi Rusiya sülhməramlıları dekabrın 1-dən başlayaraq Xankəndi və ətrafında "slavyan əsilli" şəxsləri siyahıya almağa başlayıblar.**

Qarabağda "rus icması"nın yaradılması prosesinə rəhbərlik qatı türk düşməni kimi tanınan Zori Balayanın yaxın dostu Aleksandr Bordova tapşırılıb. Məlumat üçün bildirək ki, statistik məlumatlara əsasən, 1989-cu ilin siyahıya alınmasında keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində cəmi 1922 rusun yaşadığı bəlli olub. Onların 800 nəfərini Xocavəndin Kuropatkino kəndində yaşayan malakanlar təşkil edib. Qalanları da ezam olunmuş partiya-sovet işçiləri olub. 1990-cı illərin əvvəlində həmin kəndin sakinlərinin bir hissəsi Azərbaycanın başqa rayonlarında yaşayan malakanların yanına köçüb. Bir hissəsi də Rusiyaya qayıdıb. Faktiki bu günlərdə Qarabağ sakini sayıla biləcək rusların mövcudluğu barədə heç bir informasiya yoxdur.

> "Əgər Rusiyanın siyasi dairələri həqiqətən bu düşüncədədirsə, axmaqlıq edirlər. Bu oyun Azərbaycanda baş tutmaz"

**İctimaiyyətdə narazılıq doğuran xəbərlə bağlı "Şərq"ə danışan Ağ Partiya sədri Tural Abbaslı deyib ki, Rusiyanın rəsmi mövqeyi başqa cür olsa da, sülhməramlı formatında Qarabağda həyata keçirdiyi siyasət tamamilə fərqlidir. Partiya sədrinin sözlərinə görə, əgər söhbət konkret Azərbaycandakı rus icmasından gedirsə, onların Bakıda vahid, güclü mərkəzləri var və sərbəst fəaliyyət göstərirlər:** "Qarabağda ayrıca rus icmasının yaradılması təşəbbüsü separatçılıq meylidir. Sabah Moskva tələb edəcək ki, Gəncə-Basarda, Quba-Qusarda da ayrıca rus icmaları yaradılsın. Azərbaycanda rus icması var və onun müxtəlif bölgələrdə ayrıca "filiallarının" olması yolverilməzdir. Aydındır ki, Kremlin məqsədi başqadır. Qarabağda erməniləri gücbəla ilə saxlayıblar. Müharibədən sonra Rusiya sülhməramlıları xeyli ermənini Xankəndinə daşısalar da, fərqindədirlər ki, Qarabağı birdəfəlik tərk etmək istəyən ermənilər var. Ona görə də "rus icması" kimi oyunlarla ermənilərin bölgəni tərk etməsinə mane olmağa çalışır, onların "təminatçısı" olacaqlarını göstərmək istəyirlər. Ancaq 1989-cu ilə kimi Qarabağda min nəfər işçi rusun olması faktı Qarabağda "rus icması"nın qurulması üçün siyasi-hüquqi əsas yaratmaq gücündə deyil. Ortada Krım, Donetsk, Luqansk kimi pis nümunələr var. Yəqin hansısa rus bürokratın ağlına "gözəl ideya" gəlib ki, Qarabağda da bənzər addımlar atsınlar. Əgər Rusiyanın siyasi dairələri həqiqətən bu düşüncədədirsə, axmaqlıq edirlər. Bu oyun Azərbaycanda baş tutmaz və rəsmi Bakı ilə münasibətlərə zərbə vurar. Həm ictimaiyyət, həm də XİN səviyyəsində buna kəskin etirazımızı bildirməliyik. Bu cür separatçı cəhdlərin qarşısını əvvəlcədən almaq lazımdır".

# Bir ildən çox vaxt keçir

## Qarabağdakı ermənilər hələ də silahı yerə qoymayıblar



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə çıxışı zamanı Rusiyanın rəsmi Bakı və İrəvanla daim təmasda olduğunu bildirib. Eyni zamanda M.Zaxarova üçtərəfli razılaşmaların, o cümlədən sərhəd mübahisələrinin həlli və Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasına dair məsələlərin icrası üzərində işlədiyini bəyan edib.**

M.Zaxarova Azərbaycan-Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması istiqamətində işin aparılmasının vacibliyini vurğulayıb. XİN rəsmisi Moskvanın bu məsələ üzrə iki ölkənin milli nümayəndə heyətlərinin tezliklə formalaşmasını gözlədiyini söyləyib.

**Mövzunu "Şərq"ə şərh edən analitik Turab Rzayev söyləyib ki, Soçi görüşündən sonra da Ermənistanın masaya ancaq Rusiyanın təzyiqi ilə əyləşdiyinin şahidi olduq:** "Burdan çıxan yekun bəyanat da rəsmi İrəvanın könüllü istədiyi sənəd deyildi. Həmin görüşdə həm delimitasiya və demarkasiya, həm də dəhliz məsələsində onun üzərinə götürdüyü öhdəliklər aydın ifadə olunmayıb. Misal üçün, bir müddəada dəhlizin əvəzinə nəqliyyat-kommunikasiya xətlərinin açılması yazılıb. Belə görünür ki, rəsmi İrəvan heç bu müddəanı da tanımayacaq".

***"Rusiya 10 Noyabr bəyanatının müddəalarına əməl olunması üçün Ermənistana təzyiq etmir"***

Ekspert Rusiyanın bu məsələdə nə qədər səmimi olduğunu dəqiq təxmin etməyin çətin olduğunu deyib və 10 Noyabr bəyanatına diqqət çəkib:

"Bəyanata Zəngəzur dəhlizinin açılması, eləcə də ordakı silahlı ermənilərin silahsızlaşdırılması ilə bağlı müddəalar daxil edilib. Bir ildən çox vaxt keçməsinə baxmayaraq bunların yerinə yetirilmədiyini görürük. Hətta Soçi görüşündə rəsmi Moskva ortaya açıq mövqe qoyub Zəngəzur dəhlizinin adını çəkmədi. Burada hansı səmimiyyətdən söhbət gedə bilər?".

**T.Rzayev Zaxarovanın brifinqdəki nitqinə toxunub:** "Aydın məsələdir ki, komissiyanın formalaşması üçün Rusiya tərəfi özü təklif verməli idi. İndiyə qədər o, bu yöndə addım atmayıb. Əgər bunun əksi olsa idi, diplomat çıxışında "biz lazımlı tədbirləri görmüşük, indi isə partnyorlardan cavab gözləyirik" deyərdi. Rəsmi Moskva ilk addımı atmadan tərəflərdən nəsə gözləyir".

Analitik hazırkı şəraitdə bu yöndə Azərbaycanın, eləcə də rəsmi İrəvanın ilk addımı ata bilməyəcəyini deyib və səbəbini açıqlayıb:

"Biz bununla bağlı addım atıb komissiyaya müraciət edə bilərik. Amma Ermənistanla birbaşa əlaqələrimiz olmadığından bunu yalnız Rusiyanın vasitəçiliyi ilə həyata keçirmək şansımız var. Ermənistanın isə marağında olmadığı üçün komissiya yaradılmasını təklif etmir. Belə olduqda bu işin bütün məsuliyyəti rəsmi Moskvanın üzərinə düşür".

**Günəş Mərd**



## "Haqlı davamızdan vaz keçməyəcəyik"

### Prezident Ersin Tatar: "Kipr məsələsində iki dövlətli həll yolu mümkündür"

**"Haqlı davamızdan vaz keçməyəcəyik".**

APA-nın məlumatına görə, bunu dünən Azərbaycan mediasının təmsilçiləri ilə videokonfrans formatında görüşdə Şimali Kipr Turk Cümhuriyyətinin Prezidenti Ersin Tatar bildirib.

**E. Tatar deyib ki, Şimali Kipr Türk Cümhuriyyətinin arxasında Türk Dünyası var:** "Siyasi anlamda təzyiqlər, təhdidlər olduğu üçün bizi tanımırlar. İqtisadi baxımdan Azərbaycan və digər ölkələrdən Şimali Kipr Türk Cümhuriyyətinə turistlərin, tələbələrin gəlməsi lazımdır. Bizim bütün sahələrdə çox bacarıqlı insanlarımız var. Biz insanlara ümid verməliyik ki, burada azad yaşaya bilərik. Tanınma sonranın məsələsidir".

**E. Tatar qeyd edib ki, Cənubi Kipr "Federal Cümhuriyyət" ideyasını qəbul etmir:** "Kipr məsələsində iki dövlətli çözüm mümkündür. Avropa İttifaqında yunanlar və Cənubi Kiprin lobbisi var. Ancaq biz də gecə-gündüz çalışırıq".

# Təhsilin inkişafında Heydər Əliyevin xidmətləri misilsizdir

## Təhsilin inkişafında Heydər Əliyevin xidmətləri misilsizdir



Şahin Seyidzadə,
Milli Məclisin üzvü

**İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, elm və təhsil hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində əsas rol oynayan ən mühüm amillərdəndir. Bunu xüsusilə qeyd etmək lazımdır ki, ölkənin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsinə dövlətin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin, elminin inkişaf səviyyəsi, müasir dünya tələblərinə cavab verən yeni nəsil insan kapitalının formalaşması təsir edir.**

Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafındakı xidmətləri də misilsizdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafının yeganə yolunu məhz yüksək təhsildə, xalqın maariflənməsində görüb, ölkədə bütün elmlərin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirib. Heydər Əliyevin hələ ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycan təhsilinin inkişafına mane olan bir sıra amilləri aradan qaldırıb. Mövcud potensialı ölkənin gələcək inkişafını təmin edə biləcək gənc nəslin yetişdirilməsi istiqamətində fundamental işlər görüb. Ulu öndər SSRİ dövründə Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə elm və təhsil siyasətini daim diqqət mərkəzində saxlayıb, təhsil sistemində ciddi islahatlar həyata keçirib. 1972-ci il "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", eləcə də 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəblərinin sayı 3 dəfəyə qədər artırılıb. Bu da demək olar ki, Azərbaycanın bütün rayonlarında məktəblərin açılışı, minlərlə şagirdin təhsilə cəlb edilməsi deməkdi. Bir məsələni də qeyd etmək lazımdır ki, məhz ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılıb. Ali məktəblərdə təhsil alanların sayı ölkə üzrə 100 minə qədər artıb. Ulu öndərin Azərbaycan təhsilinin inkişaf yolundakı ən böyük xidmətlərindən biri də 1970-1980-ci illərdə məhz onun birbaşa təşəbbüsü ilə 250-dən çox ixtisas üzrə hər il min nəfərə qədər olmaqla ümumilikdə 15 mindən artıq gəncin Azərbaycandan kənarda təhsil alması ilə bağlıdır. 15 min tələbə keçmiş SSRİ-nin ən məhşur ali məktəblərində təhsil alaraq, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanıblar. Bu da gələcəkdə ölkəmizin milli mənafeyinə xidmət edəcək fəaliyyətlərinin qurulması istiqamətində görülmüş işin təşkili idi. 1993-cü ilin iyununda xalqın istəyi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması Azərbaycan elminə yeni nəfəs gətirdi. Təhsil işçiləri, ziyalılar dövlətin yüksək qayğısı ilə əhatə olundular. Yüzlərlə müəllimə fəxri ad, müxtəlif mükafatların verilməsi elm adamlarına verilən diqqət və qayğının göstəricisi idi. Ölkəyə ikinci rəhbərliyi dönəmində Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 1998-ci ildə imzaladığı sərəncam, eləcə də 1999-cu ildə təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" ölkədə təhsil islahatlarına yeni baxışın formalaşmasına, Azərbaycan təhsil standartlarının müasir dövrün tələblərinə uyğunlaşdırılması prosesinə böyük təkan vermiş oldu. Dünyəvi təhsilə sürətli inteqrasiya yolunu seçən ölkəmizdə müstəqilliyin bərpasından sonra bu strateji sahəyə xüsusi diqqətin yetirilməsi bu qənaətə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə əsaslı vəhdət təşkil edir. Məhz Heydər Əliyevin birbaşa nəzarəti, diqqət və qayğısı nəticəsində elmi-tədqiqat institutlarının və elmi işçilərinin sayı hər il artırdı. Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmlənir, Azərbaycan dili, ədəbiyyatı və tarixi üzrə aparılan tədqiqatların genişləndirilməsinə xüsusi fikir verilirdi. Bu gün hər bir azərbaycanlı iftixar hissi ilə qeyd edə bilər ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin bundan sonra mütləq şəkildə davam etdirilməsi Azərbaycan dövlətinin tərəqqisinin və insan kapitalının formalaşdırılmasının ən böyük təminatıdır.

***Məhz ümummilli liderin hakimiyyəti illərində 15 mindən artıq gənc Azərbaycandan kənarda yüksək təhsilə yiyələnib***

***Bu əməkdaşlıq formatı Türkiyənin NATO-da mövqelərini daha da gücləndirəcək***



# Kibertəhlükəsizlik prioritet sahədir

## Böyük Britaniya Ankaranı yanında görmək istəyir

**İngiltərə Müdafiə və Təhlükəsizlik Forumunun rəhbəri Olqa Meytland ölkəsinin Türkiyə ilə məlumat bölüşməyə hazır olduğunu və türk dövlətinin müttəfiq kimi qəbul edilməsinin lazım olduğunu bildirib. Meytland Türkiyənin kibertəhlükəsizlik sahəsində mühüm aktor olduğunu deyib.**

Dünyada milli təhlükəsizlik və müdafiə sahələrinə yanaşmada böyük dəyişiklik olduğunu vurğulayan Meytland aparıcı ölkələrin bu müdafiə və kibertəhlükəsizliyə çox ciddi büdcələr ayırdığını xatırladıb. Böyük Britaniyanın əsgər sayını 83 minə, daha sonra isə 72 minə endirdiyini qeyd edən Meytland bu yöndə qənaət edilən büdcənin kibertəhlükəsizlik sahəsində qiymətləndirildiyini deyib. O, Türkiyənin də bu mənada önəmli ölkə olduğunu bildirib: "Türkiyə çox önəmlidir, Prezident Ərdoğanın Kiber Təhlükəsizlik Mərkəzi qurmasını olduqca vacib hesab edirik. Əlbəttə, ingilislər Türkiyə ilə məlumat bölüşməyə hazırdırlar, şübhəsiz ki, Türkiyəni kibertəhlükəsizlik sahəsində müttəfiq hesab etməliyik".

**Meytland Türkiyə ilə İngiltərə arasında uzun müddətdir əməkdaşlığın davam etdiyini xatırladıb:** "Bizim üçün çoxlu təhdidlər var. Türkiyə də tək deyil. O, tək qalmamalıdır". O qeyd edib ki, Böyük Britaniya Avropa İttifaqından çıxdığı üçün çevikliyə malikdir və bu, Türkiyə ilə əməkdaşlığı genişləndirmək üçün yeni imkanlar yaradır.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bildirib ki, dövlətlərin informasiya ehtiyatlarının, o cümlədən informasiya təhlükəsizliyi insidentlərinin operativ idarə edilməsi günün ən vacib məsələlərindən və problemlərindən biridir:** "Bu yöndə hazırda ABŞ və Avropa ölkələri kiber-təhlükəsizliyin təmin olunması üçün büdcələrinə xüsusi əlavələr ediblər. Hətta bir sıra ölkələr hərbi sahədə ixtisarlar edərək kiber-təhlükəsizliyə diqqəti artırmağı üstün tuturlar. Çünki kibernetika və onun təhlükəsizliyi təmin olmayan ölkələr "lider ölkə" statusu barədə düşünə bilməzlər. Müasir dövrdə İnformasiya texnologiyalarının fantastik inkişafı kiber-cinayətkarlığa yol açıb. Kiber-cinayətkarlığın artması bütün dünyada dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemləri təhlükə altına qoyur. ABŞ, Rusiya, Çin, İngiltərə, Almaniya, Fransa və Türkiyə öz xüsusi kiber qoşunlarını yaradıblar. NATO-nun ən güclü hərbi potensialına malik olan Türkiyə bu sahədə ciddi uğurlara imza atıb. Bu səbəbdən Böyük Britaniya kibertəhlükəsizlik sahəsində Türkiyə ilə əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlıq formatı Türkiyənin NATO-da mövqelərini daha da gücləndirəcək".

**İsmayıl Qocayev**

# Rusiya-Ukrayna düyünü açılmayıb

## Qərb daha sərt mövqe sərgiləməlidir



**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova keçirdiyi brifinqdə Brüsseldən Kiyevə maliyyə dəstəyinin göstərilməsinin sülhə töhfə vermədiyini bildirib. Diplomat Avropa İttifaqının bu yaxınlarda Ukraynanın hərbiləşdirilməsi prosesinə qoşulduğunu deyib. O, dekabrın 2-də Aİ Şurası Ukrayna Silahlı Qüvvələrinə hərbi-texniki yardım üçün 31 milyon avro ayrılması barədə qərar qəbul etdiyini diqqətə çatdırıb.**

M.Zaxarova eyni zamanda Ukrayna üzrə təmas qrupunun və onun işçi alt qruplarının dekabrın 7-dən 8-dək keçirilən iclaslarının da növbəti dəfə nəticəsiz qaldığını söyləyib.

Zaxarovanın bəyanatı tərəflər arasındakı danışıqların hazırkı mərhələdən irəli getməyəcəyini göstərir. Bu, Rusiya-Ukrayna müharibəsinin yaxın zamanda baş verəcəyinə dair siqnal ola bilərmi?

**Əziyyəti "Şərq"ə şərh edən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli qeyd edib ki, Azərbaycan-Ermənistan münaqişəsində rəsmi Bakının Rusiyanın Ermənistana silah satmasından narahat olmasına cavab olaraq Zaxarova "bu, Rusiyanın öz işidir" demişdi:**

"Ukraynanın da kimdən silah alacağı, kimə silah satacağı onun daxili işidir. Rusiyanın bundan narahat olması təbiidir. Rusiya özünü Sovetlər Birliyində hiss edir. Elə bilir ki, paytaxt Moskvadır və keçmiş müttəfiq respublikalara istədiyi kimi müdaxilə edə bilər. Artıq o dövr deyil".

**Politoloq gözlənilən Ukrayna-Rusiya müharibəsinin yaxın zamanda baş tutmayacağını söyləyib və səbəblərini açıqlayıb:**

"Çünki Ukrayna, eləcə də Rusiya hazırda bu riskə getməz. Putin bildirib ki, sərhəddə yaranan durum ordakı ordunun dislokasiyasıdır. Belə olmadığını hər kəs bilir. Rəsmi Moskva indi sadəcə hədəqorxu gəlib, Ukraynadan daha çox Qərbin buna mövqeyini bilmək istəyir. Hələlik Bayden-Putin görüşündə Ağ Evin bir qədər sərt reaksiyasını gördük. Nəhayət, Qərb Rusiyanın son illərdəki aqressiv siyasətinə təpki verdi. Təbii ki, rəsmi Moskvanı dayandırmaq üçün bu, kifayət deyil. Daha sərt mövqe sərgilənməlidir".

**Günəş Mərd**

# Son sözü Bakı deyəcək

## Avrasiya Birliyinə qoşulmaq haqqında düşünməyə dəyər



**Qazaxıstanın birinci prezidenti, Avrasiya İqtisadi Birliyinin fəxri sədri Nursultan Nazarbayev Azərbaycanı Avrasiya İqtisadi İttifaqına çağırıb.**

O, bu çağırışı Avrasiya İqtisadi Şurasının videokonfrans formatında keçirilən iclasında çıxışı zamanı edib. Siyasətçi açıqlamasında bildirib ki, Azərbaycana Avrasiya İqtisadi Birliyində müşahidəçi statusu verilə bilər: "Düşünürəm ki, hamı belə fikirləşir. Bundan başqa, əvvəl də dediyimiz kimi, Azərbaycan Respublikası ilə Avrasiya İqtisadi İttifaqında müşahidəçi ölkə statusu alması üçün danışıqlar aparılması mümkündür. Özbəkistan nümunəsi ilhamlandırmalıdır. Qənaətimcə, Özbəkistan bundan az qazanmadı".

**İttifaqa qatılmağın Azərbaycana verdiyi vədlər barədə "Şərq"ə danışan politoloq Əlimusa İbrahimov vurğulayıb ki, Azərbaycanın bu təşkilata daxil olma məsələləri uzun müddətdir ki, gündəlikdədir:** "Zaman-zaman diqqət mərkəzinə gətirilir, sonra bu mövzu arxa plana keçir. Bir neçə dəfə Azərbaycana bu istiqamətdə ismarışlar verilib. Bildiyimiz kimi Azərbaycan Vətən müharibəsindən əvvəl bu təşkilata qoşulmaqdan imtina edib. Çünki ermənilərin orada iştirakı və Azərbaycan-Ermənistan arasında olan münaqişəli vəziyyət hökm sürür. Bu səbəblər onu Avrasiya Birliyinə daxil olmaqdan çəkindirib. İndiki halda baxmayaraq ki, təşkilata Rusiya rəhbərlik edir, amma türk faktoru önə çıxıb. Fikrimcə, türkdilli dövlətlər təşkilata sanki rəhbərlik edir, onun işini istiqamətləndirirlər. Rusiyanın özünün də ehtiyacı var ki, öz ətrafını, çevrəsini genişləndirsin. Həm də çevrəni böyütmək Azərbaycan, Türkiyə və digər dövlətlər hesabına baş versin".

**Politoloqun qənaətincə, birlik hazırda əvvəlki qədər Azərbaycan üçün təhlükəli ehtimal hesab edilə bilməz:**

"Bu təşkilata daxil olmaq ölkələrarası münasibətlərin daha da intensivləşməsinə səbəb olacaq. Həmçinin iqtisadi münasibətlərin yaxşılaşmasına təsir göstərəcək. Təbii ki, son sözü rəsmi Bakı deyəcək. Dövlət səviyyəsində qərar qəbul olunarsa, ölkəmizin xeyrinə olacaq. Bu məsələdə heç bir məcburiyyət ola bilməz. Əgər Azərbaycanın mənafeyinə cavab verəcəksə, bu addım atılacaq.

Eyni zamanda bu təşkilatda iştirak Azərbaycanın digər təsisatlarla münasibətlərinə kölgə düşürməməlidir. Zənnimcə, qoşulmaq haqqında düşünməyə dəyər".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması.**



# Tarix heç nəyi unutmur

## Ermənilərin azərbaycanlılara qarşı törətdikləri bütün cinayət əməlləri rəsmiləşdirilir

**İsmayıl Qocayev**

**İkinci Qarabağ müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsi ilə təcavüzkar Ermənistanın 30 illik işğalına son qoyuldu. Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi, münaqişəsi bitdi. Azərbaycan dövləti qalib dövlət, xalqımız isə qalib xalq kimi dünya tarixinə öz möhürünü vurdu.**

Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi Qələbə regionda yeni reallıqlar yaratdı, ölkəmizin beynəlxalq aləmdə mövqeləri daha da möhkəmləndi. Bütün dünya işğaldan azad edilmiş ərazilərdə ağlasığmaz erməni vandalizminin şahidi oldu. Beynəlxalq ictimaiyyət ilk dəfə yox edilmiş şəhər və kəndlərə, dağıdılmış qəbiristanlıqlara, təhqir edilmiş məscidlərə şahidlik etdi. Müasir hərbi silahlarla bərabər, həm də təpədən dırnağa qədər nasizm, faşist ideologiyası ilə silahlanan Ermənistan ordusu 30 ilə yaxın müddətdə işğal altında saxladığı əraziləri talayıb, dağıdıb. Prezident İlham Əliyev Qarabağa növbəti səfərlərinin birində düşməndən təmizlənmiş ərazilərdəki müşahidələrini belə ifadə etmişdi: "Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın". Təbii ki, təcavüzkar Ermənistanın bu cinayətkar əməlləri cavabsız qala bilməzdi. Xatırladaq ki, bu il sentyabrın 14-də Ermənistan Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsində "İrqi ayrıseçkiliklə" bağlı Azərbaycana qarşı iddia qaldırmışdı. Həmin tarixdən 1 həftə sonra Azərbaycan tərəfi qarşılıqlı iddia ilə çıxış etmişdi. Oktyabr ayının 14-dən dekabrın 7-nə qədər Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən hər iki dövlətin qaldırdığı iddialar əsasında məhkəmə kollegiyası müzakirələr apardı. Nəhayət, Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın iddialarının əsaslı olmaması, heç bir fakta və sübutlara söykənmədiyini əsas götürərək belə bir qərarın qəbul olunması ilə bağlı yekun qərar çıxartdı. Şübhəsiz, Məhkəmənin Ermənistanın iddialarını ləğv etməsi və Azərbaycanın qaldırdığı iddia ilə bağlı qəbul etdiyi qərarı ölkəmizin növbəti diplomatik-siyasi uğuru kimi dəyərləndirmək olar. Bununla Ermənistanın hərbi-siyasi rəhbərliyinin, dünya erməniliyinin 44 günlük müharibədən sonra apardıqları çirkin təbliğat kampaniyası fiaskoya uğradı. "Azərbaycanın müharibə cinayətləri" ilə bağlı məkrli planları tamamilə darmadağın olundu. Xatırladaq ki, Ermənistan Azərbaycana qarşı 3 istiqamətdə iddia irəli sürmüşdü. Birincisi, müharibədən sonra həbs edilmiş təxribatcı erməni qüvvələrinin dərhal geri qaytarılması, digər iddia Bakıda mövcud olan Hərbi Qənimətlər Parkının bağlanılması ilə bağlı idi. Eyni zamanda, Azərbaycanın Ermənistana qarşı müharibə cinayətlərinin araşdırılmasına dair iddia irəli sürülmüşdü. Azərbaycana qarşı iddiaların ləğv edilməsi və Ermənistan üzərinə belə bir öhdəliyin qoyulması göstərir ki, onlar tələm-tələsik, heç bir sübut və dəlillərə əsaslanmayan qaydada Azərbaycana qarşı iddia qaldırmaqla çirkin niyyətlərinə nail olacaqlarına ümid bəsləyirdilər. Azərbaycan tərəfinin Ermənistana qarşı iddiaları o qədər faktlara, dəlillərə söykənib ki, Beynəlxalq Ədalət Məhkəməsi hakimlər kollegiyası fakt qarşısında qalaraq ədalətli qərarın qəbul edilməsini təmin ediblər. Bu onu göstərir ki, Qarabağda baş verən hadisələr Ermənistanın işğalçı siyasəti, işğal etdikləri ərazilərdə törətdikləri vandalizm hərəkətləri bütün beynəlxalq təşkilatlar tərəfindən görülür. Onlar Ermənistanın bu cinayətkar siyasətinin və fəaliyyətinin nədən ibarət olduğunu artıq dərk ediblər. Əmin olmaq istərdik ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarının Ermənistan tərəfindən dərhal yerinə yetirilməsi üçün beynəlxalq hüquq çərçivəsində təsirli tədbirlər görüləcək.

Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov məsələ ilə bağlı bildirib ki, məhkəmə qərarı olduğuna görə, bir qayda olaraq əvvəlki illərin presidentlərinə görə dövlətlər üzərində qərarın yerinə yetirilməsi üzrə ciddi təzyiqlər olur: "Ədalət Məhkəməsi üçün qərarın icra olunması prinsipial məsələdir. Yeni mexanizm yaradılıb. Qərarlarla bağlı 3 hakimdən ibarət komitə formalaşdırılıb. Qərarlar icra olunmadığı təqdirdə məhkəmə sədrinə məlumat verilir. Ermənistana açıq şəkildə çağırış etdik ki, qərarlara riayət etsin və qarşıdurmaların qarşısını alsın. Ermənistanda Türkfobiya, Azərbaycanfobiya aparılır. Bu məsələ gələcək nəsillər üçün önəmli məsələdir. Hesab edirik ki, konvensiya çərçivəsində əldə edilən ən böyük uğurlardan biri budur". Azərbaycan müharibədən sonra səmimi qonşuluq münasibətlərinin yaranmasına xidmət edəcək Azərbaycan-Ermənistan münasibətlərində yeni səhifənin açıldığını bildirib. Çox təəssüf ki, qarşı tərəfdən bizim çağırışımıza müsbət cavab verməyib. Hətta əvəzində düşmənçiliyi qızışdıran şüarlar səsləndirilib. Bu proseslər hələ də davam etməkdədir. Həmçinin Ermənistanda türklərə və azərbaycanlılara qarşı nifrəti və düşmənçiliyi təşviq edən siyasət yürüdülür.

**Millət vəkili Azər Badamov bildirib ki, Azərbaycan Ermənistandan fərqli olaraq tolerant ölkədir. Deputatın sözlərinə görə, Azərbaycanın tolerant və multikultural siyasəti dünya tərəfindən tanınır:** "Ermənistanda bir nəfər belə azərbaycanlı qalmadığı halda, ölkəmizdə 10 minlərlə erməni yaşayır. Həmçinin Azərbaycanda yaşayan ermənilərə qarşı heç bir təzyiq və ya ayrı-seçkilik yoxdur. Onlar özlərini Azərbaycanın tamhüquqlu vətəndaşları kimi hiss edirlər. Hətta 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında böyük itkilərə məruz qalan Ermənistan Gəncəni raket atəşinə tutmuş və bu atəş nəticəsində ölənlərdən biri də erməni əsilli Azərbaycan vətəndaşı olub. Müharibə vaxtı Ermənistanın keçmiş müdafiə nazirinin bacısının Azərbaycanda olduğu məlum olub. Vaxtilə ermənilər Ermənistanda yaşayan azərbaycanlıları məqsədli şəkildə qovaraq etnik təmizləmə həyata keçiriblər. Məhz etnik təmizləmə və diskriminasiya nəticəsində Ermənistan monoetnik ölkəyə çevrilib. Həm də bu illər ərzində Ermənistan azərbaycanlılara qarşı soyqırımlar törətdiyi kimi, işğal etdiyi ərazilərimizdəki mədəniyyət və tarixi abidələrimizə qarşı da vandallıq edib. Tarix heç nəyi unutmur. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri bütün cinayət əməlləri rəsmiləşdirilir. Beynəlxalq hüquq müstəvisində tədbirlərin görülməsi üçün hüququ baza formalaşdırılır. Düşünürəm ki, yaxın vaxtlarda Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycanın Ermənistana qarşı qaldırdığı yeni iddialar haqqında qərarların verildiyini də müşahidə edəcəyik".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Yeni hüquqi platforma yaranacaq

## Media qanunu həm də jurnalistlərə böyük üstünlüklər tanıyacaq

**"Media haqqında" yeni qanun layihəsi hazırlanıb və ictimai müzakirəyə çıxarılıb. Sənəd media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.**

Qanun layihəsi Azərbaycan mətbuatının inkişafına yol açacaq. Mətbuatın güclənməsi, inkişaf etməsi hər bir dövlətin marağına uyğundur. Azərbaycan dövləti də medianın güclənməsində maraqlıdır. Kütləvi informasiya vasitələrinin köməyi ilə insanlar qısa bir zamanda dünyada baş verənlər haqqında məlumat ala bilirlər. Sosial media cəmiyyətdə və dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə kifayətlənmir. O, insan hüquqlarının pozulmasına qarşı çıxan və bu barədə dünyada obyektiv informasiya yayan bir vasitədir.

**Yeni layihə ilə bağlı Əməkdar jurnalist, siyasi ekspert Elçin Mirzəbəyli "Şərq"ə bildirib ki, media layihəsi mətbuatın güclənməsində mühüm rol oynayacaq:**

"Media layihəsi nəticəsində hansı media qurumunun peşəkar, hansının qeyri-peşəkar olduğu aydınlaşacaq. Digər aspektdən sənəd həm media qurumlarına, həm də jurnalistlərə böyük üstünlüklər tanıyır. Məsələn, vahid jurnalist vəsiqəsinin tətbiqi nəticəsində bir sıra güzəştlər nəzərdə tutulub ki, bu da peşəkar media resursları üçün əhəmiyyət kəsb edir. Ən önəmli məqam isə layihə nəticəsində hüquqi platforma yaranacaq. Həmçinin Azərbaycan mediasının gələcək inkişafının təmin olunması üçün imkanlar yaradır. "Media haqqında" qanun Azərbaycan mediasında islahatların davamlı şəkildə həyata keçirilməsi üçün zəmin yaradacaq".

**Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlı "Şərq"ə açıqlamasında qeyd edib ki, bəzi boşluqlar istisna olmaqla, qanun layihəsi müsbət nəticələr verəcək:**

Qanun layihəsi medianın güclənməsinə çox böyük təsir edəcək. Dövlət medianın güclənməsində maraqlıdır. Əlavə olaraq, reklam bazarı gücləndirilərsə, media qurumlarına ianələr, dövlət dəstəyi də tətbiq edilərsə, mətbuatın güclənməsinə müsbət təsir edəcək. Geriyə qalan bəzi boşluqları doldurmaq üçün jurnalistlərlə müzakirələrin keçirilməsi önəmlidir. Müəyyən boşluqların da gələcəkdə həll ediləcəyinə inanıram. Bu sənəd dövlət və jurnalistlərin ortaq maraqlarına uyğun olaraq daha da inkişaf etdirilməlidir".

**Xanlar Əlibəy**

# Xarici çevrələrin dirijor çubuğu ilə fəallaşan üzdəniraq soydaşlarımız...

## Ermənilərlə eyni düşüncəyə və niyyətə sahib olanlar üçün hədəf şəxsi mənfəət, maddi qazanc əldə etməkdən ibarətdir



Elman Babayev

**30 il davam edən erməni işğalına təkbaşına son qoyaraq tarixi ədaləti bərpa edən qalib Azərbaycanın dünyada nüfuzunun daha da artması, dövlətimizin yüksək səviyyəli iqtisadi, siyasi, humanitar mərkəzə çevrilməsi ölkəmizi sevməyən dairələri, erməni lobbisini ciddi narahat edir. Artıq bir müddətdir anti-Azərbaycan fəaliyyətini daha da gücləndirən bu dairələrin xaricdə yaşayan azərbaycanlı fəallardan zaman-zaman istifadə etmələri yeni məsələ deyil. Təəssüf doğuran bu arzuolunmayan birlik son günlər daha qabarıq şəkildə görünməkdədir. Bu şəxslər neçə gündür ki, ardıcıl formada heç nədən çəkinmədən ermənilərlə eyni mövqe sərgiləyən bəyanatlara müəlliflik edirlər.**

Son bir həftədə baş verən faktlara diqqət edək:

- AŞ PA-nın Hüquq Komitəsinin Parisdə keçirilən iclasında İsveçrədə yaşayan azərbaycanlı fəal Emin Hüseynovun təşkilatçılığı ilə Azərbaycan Ordusunun nüfuzdan salınması ilə bağlı hazırlanmış və bir sıra Avropa deputatları tərəfindən imzalanan qətnamənin qəbuluna cəhd olunur.

- Hazırda ABŞ-da yaşayan jurnalist Sevinc Osmanqızı "Osmanqızı TV"- də "Kaş ki, Paşinyan bizim prezidentimiz olaydı" bəyanatını səsləndirir.

- "Qarabağ"ın dünənki oyunundan sonra Fransada yaşayan müxalifətçi Məhəmməd Mirzəli "Qarabağ" futbol komandasını radikal islamçıların idarə etdiyi barədə status paylaşır: "Qarabağ futbol komandasını radikal islamçıların idarə etdiyini eşitmişdim, amma inanmırdım. Dünən axşam buna əmin oldum ki, bu adamlar yeri gəlsə, stadionun ortasında baş da kəsərlər. Yəni bu qədər əclaf adamlardır".

Başqa misallar da göstərmək mümkündür. Bu adamların Azərbaycan əleyhinə açıq şəkildə düşməncəsinə fəaliyyətinin arxasında erməni lobbisinin dayandığını görməmək mümkün deyil. Hərəkətə gətirilən azərbaycanlı fəallar ictimai narazılığın artması, qarmaqarışlığın yaranması üçün Azərbaycan üzərindən ən çirkin senarilərdə yer almağa başlayıblar.

Ölkəmizə qarşı aparılan kampaniyanın anti-Azərbaycan qüvvələri, erməni lobbisi tərəfindən idarə olunduğu xaricdə yaşayan azərbaycanlı fəalların davranışları ilə bir daha təsdiqlənir. Bir ana xətt seçilib - Azərbaycan dövlətini, onun Prezidentini maksimum gözdən salmaq. Və bunun üçün ən yaramaz addımlara belə getmək. Əks təqdirdə hakimiyyətdən narazılıq mahiyyətinə uyğun ifadə olunardı. Bu şəxslərin, eləcə də xaricdə olan başqa müxalifətçilərin fəaliyyətində hakimiyyətdən narazılıq kiçik bir detal kimi istifadə olunur. Daha çox dövlətin imicinə zərbə vurulması üçün reallığa əsaslanmayan fikirlər səsləndirilir, fəaliyyət ortaya qoyulur.

Erməni lobbisinin bundan öncə də Azərbaycan əleyhinə istifadə etdiyi məkrli planlarda azərbaycanlı fəalların, müxalifətçilərin daha çılpaq formada istifadə olunması bu gün açı gerçəklik kimi qarşımızda durub. Belə ünsürlərdən yararlanaraq ölkəmizə qarşı planlaşdırılan senarilər uğursuzluğa məhkumdur. Eyni 3-5 sifətin arxasında kimlərin durmasını cəmiyyət yaxşı anlayır. Sığındıqları ölkələrdə belə orada yaşayan soydaşlarımızın bir nəfərinin də olsa dəstəyini ala bilməyən ünsürlərin Azərbaycanda ictimai rəyi çaşdırmaları baş tutmayacaq.

Yalanlarla, təhqirlərlə, öz dövlətinə qarşı düşmən münasibətlə nəyəsə nail olmağın mümkünsüzlüyünü ola bilməz ki, bu şəxslər dərk etməsin. Görünən odur ki, sifarişi verənlər məhz bu yolu - Azərbaycan dövlətini təhqir etmək, qeyri-etik yollarla onu ləkələməyi əmr edib.

Ən iyrənc yollara baş vurulmasından asılı olmayaraq, hansısa çirkli planların Azərbaycanda ayaq tutub yeriməsi imkanları minimum səviyyədədədir. Çünki xalq iyrənc, qorxunc planlarda alət olanları yaxşı tanıyır, onların keçmişlərinə bələddir. Ermənilərlə oxşar mövqe sərgiləyənlər həmişə Azərbaycanın uğurlarına sevinmək kimi hisslərə tamamilə yad olduqlarını fəaliyyətləri ilə sübut ediblər.

Elə məsələlər var ki, orada müxalifətçilik bir kənara qoyulmalıdır. Əgər söhbət Azərbaycanın nüfuzunun hansısa xarici dairələr tərəfindən məqsədli şəkildə ləkələnməsindən gedirsə, orada ümumiyyətlə, müxalifətçilik olmamalıdır. Hər hansı çatışmazlıq olsa belə, onu ictimailəşdirmədən, başqa formada çatdırmalısan, öz Vətəninin imicinin korlanmasına cəhdlər olan yerdə müdafiə etmək istəmirsənsə, heç olmasa, susmalısan. Bunun üçün isə içində ilk növbədə Azərbaycan yanğısı, vətənpərvərlik olmalıdır.

Amma biz onun şahidiyik ki, bu hisslər adları çəkilən adamlara tam yaddır. Onlar çoxdan bütün mənəvi dəyərləri tapdalayaraq Azərbaycana qarşı olan çevrələrə satılıblar. Ermənilərlə eyni düşüncəyə və niyyətə sahib olanlar üçün öz ölkəsinin maraqları, mənafeyi anlayışı yoxdur, yalnız şəxsi mənfəəti, xidmət etdiyi dairələrdən maddi qazanc əldə etmək hədəfi var.

# Vətəndaşların maddi rifahı getdikcə ağırlaşır

## Hökumət inflyasiyanın təsirini azaltmaq üçün tariflər və rüsumları azalda bilər



**2021-ci ilin yanvar-noyabr aylarında istehlak qiymətləri indeksi 2020-ci ilin yanvar-noyabr aylarına nisbətən 106,2 faiz təşkil edib.**

O cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 107,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 104,8 faiz olub. Əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 105,4 faiz göstərilib. Məlumata görə, cari ilin noyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,5 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 111,1 faiz təşkil edib. 2021-ci ilin noyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,9 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 114,9 faiz olub. Nəticə olaraq Azərbaycanda illik inflyasiya 6 faizi keçib.

Əlbəttə, inflyasiya qiymətlərin artımına səbəb olur ki, bu da sonda əhalinin rifah halına mənfi təsir göstərir.

**İnflyasiyanın təsirləri ilə bağlı "Şərq"ə danışan sabiq millət vəkili, iqtisad elmləri doktoru Nazim Bəydəmirli bildirib ki, hökumət vətəndaşlara kömək etmək əvəzinə vəziyyəti qəlizləşdirir:**

"Dövlət inflyasiyanı hesablayarkən istehlak səbətinə daxil olan çeşidli malları və xidmətləri hesablayır. Lakin bu məhsulları vətəndaş 3-5 ildir istifadə etmir. Bu mallar ümumi istehlak səbətinə daxil olduğu üçün orta statistik rəqəm aşağı düşür. 2021-ci ildə dünyada ciddi qiymət artımı baş verib. BMT-də qəbul edilib ki, builki qiymət artımı çox yüksəkdir.

**N.Bəydəmirli qeyd edib ki, hökumət inflyasiyanın insanlara təsirini azaltmaq üçün tariflər və rüsumları azalda bilər:**

"Hökumət gələn il 25 faizdən az olmamaqla maaşları, pensiyaları və digər müavinətləri artırmaq haqqında düşünür. Artımın nə qədər olacağı ilə bağlı dəqiq fikir söyləmək çətindir. Bir sözlə, bu sahədə heç bir tədbir görülmür. Əksinə, kommunal xidmətlərin qiymətləri artır. Əslində hökumət iqtisadi fəaliyyəti, iqtisadi artımı stimullaşdıra bilər. Buna da monopoliya inhisarçılığı imkan vermir. Ən yaxşı halda rəqabət mühitini təmin etməlidir ki, insanlar daha çox vəsait qazansınlar. Bununla da şəraitlərini yaxşılaşdıra bilərlər. Kommunal xidmətlər verən dövlət orqanları qiymətləri artırır. İstənilən halda müsbət nəticə gözləmirəm".

**Xanlar Əlibəy**

## "Azercell" abunəçilərinə müraciət edib

**"Azercell Telekom" MMC bütün abunəçilərini yalnız rəsmi mənbələrə istinad etməyi, o cümlədən müxtəlif sosial şəbəkə, "WhatsApp" tətbiqi, SMS və digər kanallar üzərindən göndərilən şübhəli məzmunlu keçidlərə və ismarıclara reaksiya verməməyə çağırır.**

Əlavə çətinliklər ilə qarşılaşmamaq, yanlış məlumatlar nəticəsində yarana biləcək xərclərin qarşısını almaq üçün "Azercell Telekom" MMC öz abunəçilərinə şübhəli zənglərə və SMS-lərə cavab verməməyi, etibar doğurmayan mənbələrdən istifadə etməməyi, yalnız rəsmi məlumatlara istinad etməyi, həmçinin cihaz və nömrə ilə bağlı təhlükəsizlik tədbirlərinə əməl etməyi, şifrələri 3-cü şəxslərə bildirməməyi, şübhəli məzmunlu müxtəlif oyun, yarışma və s. yararlanmamağı tövsiyə edir.

# Qidanın kalorisi uşaqların yaş qrupuna görə dəyişməlidir

## Bağçalarda xüsusi normativ qaydalara mütləq əməl olunmalıdır

(Əvvəli səh: 8-də)

**Qida Təhlükəsizliyi Agentliyi məktəbəqədər təhsil müəssisələrində yoxlama aparıb. Kobud pozuntu faktları aşkar olunan 183 məktəbəqədər təhsil müəssisəsinin rəhbər şəxsləri barəsində inzibati qaydada tədbir görülüb. Bu barədə AQTA-nın əməkdaşı Şəhla Yusifzadə məlumat verib. Onun sözlərinə görə, bu il oktyabrın 4-dən ölkə üzrə fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələrində yoxlamalara başlanılıb.**

Bunların sayı 1622-dir. "Dekabrın 1-nə olan statistikaya görə, 220 müəssisədə dövlət nəzarət tədbirləri başa çatıb. 205 müəssisədə 1236 nöqsan aşkarlanıb. Bütün bu monitorinqlərin yekunu olaraq məktəbəqədər təhsil müəssisələrində qidalanmanın düzgün təşkil edilməsinə dəstək məqsədilə həm Bakıda, həm də bölgələrimizdə fəaliyyət göstərən uşaq bağçaları və körpələr evi rəhbərlərinin və məsul şəxslərin iştirakı ilə təlim keçirilib. Bu təlimlər artıq silsilə xarakteri daşıyır və davam etdiriləcək". Ş.Yusifzadə bildirib ki, dövlət bağçalarında yoxlamalar yekunlaşdıqdan sonra ikinci mərhələdə özəl bağçalarda da yoxlamalara start veriləcək.

**Məsələylə bağlı "Şərq"ə danışan AQTA yanında İctimai Şuranın üzvü, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qeyd etdi ki, bağçalarda kobud pozuntular əsasən 3 istiqamətdə müəyyən edilib:**

- Birincisi, qidaların kalorisinin uşaqların tələbatına uyğun olmamasıdır. Qidanın kalorisi uşaqların yaş qrupuna görə dəyişməlidir. Bunun üçün xüsusi normatov qaydalar var. Büğçalarda buna mütləq əməl olunmalıdır. İkincisi, sanitar-gigiyenik qaydalara əməl edilməsidir. Mətbəxlər normalara uyğun olmalıdır. Üçüncüsü, qidaların, ərzağın saxlanma şəraitidir. Ərzaq sənaye malları ilə eyni yerdə saxlanmamalıdır. İstər dövlət məktəbəqədər müəssisəsi olsun, istərsə də özəl bağçalar, hər yerdə qaydalara riayət edilməlidir.



**Məlahət Rzayeva**


"Şərq" qəzetinin kollektivi Fəzail İsmayıl Böyükkişiyə yaxın qohumu

**Cəfərova Firuzə Mustafa**

qızının vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Daxili İşlər Nazirliyi, Yasamal Rayon Mühafizə İdarəsi, 2-ci bölüyün kollektivi Elşad Abbasovun atası

**Soltan Abbasovun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Elan**

İnsanova Elnarə Vəli qızının adına olan 2006-2007-ci il internatura sənədi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Pula tüpürərək ödəniş edən gənc polisə çağırıldı

### Etibar İskəndərov əməlindən peşman olduğunu bildirib



**"Pul nişanına hörmətsizlik edən şəxs müəyyən olunaraq, polis orqanına çağırılıb".**

Bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev "Facebook" səhifəsində yazıb:

*O qeyd edib ki, paytaxt sakini Etibar İskəndərovla profilaktiki söhbət aparılmaqla, bu əməlin neqativ hərəkət olması diqqətinə çatdırılıb:*

"Etibar İskəndərov bu əməlindən peşman olduğunu bildirib, sosial şəbəkələrdə yayılan həmin görüntülərə görə üzrxahlıq edib".

Qeyd edək ki, dünən sosial şəbəkələrdə gənc oğlanın pulun üzərinə tüpürməsi ciddi müzakirələr səbəb olub. Gənc oğlan marketlərdən birində ödəmə terminallarına yaxınlaşıb ödəniş edir. Lakin o, ödəniş etməzdən əvvəl əsginasın üzərinə tüpürür və bunu kameraya göstərib.

# Vərəm deyildi, amma öldürüldü

## Heyvanın haqsız qətl edilməsinə görə məhkəməyə müraciət olunub



**Analiz götürülən alpaka, başqa adıyla tüklü lamada xroniki, yoluxucu və zoonotik xəstəlik olan "sığır vərəmi" testi cavabının müsbət çıxmasıyla heyvan tələf edilib.**

Bu məsələ uzun müddət müzakirə predmeti olub. Lamanın tələf edilməsinə əsaslı səbəb olmadığını iddia edən sahibi hüquqi tərəflərə baş vurub. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hadisə İngiltərədə yaşanıb. 2017-ci ildə Yeni Zellandiyadan gətirilmiş, Geronimo adı verilən tüklü lamanın "sığır vərəmi" testinin nəticəsi pozitiv çıxdıqdan sonra Qida və Ətraf Mühit işləri Departamenti heyvanın xüsusi vasitə ilə yatızdırılması təlimatını verib.

Geronimonun sahibi, ixtisasca baytar olan Helen Macdonald isə test nəticələrinə qarşı çıxıb və heyvanın həyatını xilas etmək üçün Ali Məhkəməyə müraciət edib. Və heyvanın sağlam olmasına dair yeni dəlillər irəli sürüb. Məhkəmə heyvanın tələf edilməsini təxirə salan qərar çıxarıb. Lakin sözügedən Departament öz bildiyini edib. Heç bir xəbərdarlıq almadığını söyləyən H.Macdonald "bu hökumətdən iyrənirəm. Bunlar vəhşi davranışlardır. Bu, bir utancdır", deyib. Qoruyucu libas geyinmiş Departament əməkdaşları Geronimonu aparmaq üçün Bristoldakı fermaya gəlib. Heyvanı yük maşına zorla qaldırıblar. Sonra isə ona iynə vuraraq yatızdırıblar. Geranimonun aparılmasının qarşısını almaq üçün tərəfdarlar ferma ətrafına toplaşıb. Hətta polislə qarşıdurma da yaranıb. "Departament əməkdaşları məni heç dinləmədi, heyvanı zor gücünə apardılar" söyləyən H.Macdonald hökuməti xoş niyyətli olmamaqda suçlayıb. Sahibi heyvanın başına gələnələr öyrənmək istədikdə ona "əməkdaşlar tətildədir", deyərək aldadıblar. Əslində isə onlar lamanı öldürməyi planlaşdırırmış. Baş nazirlikdən də Hmacdonalda dəstək məktubu gəlib. Məktubda heyvanların sığır vərəminə yoluxmasının üzücü hal olduğu qeyd edilib. H.Macdonald heyvanın sağlam olması iddiası ilə yenidən məhkəməyə müraciət edib. Hüquq müstəvisində 4 il davam edən məhkəmə çəkişməsi nəticəsində Geronimoda vərəm olmadığı təsdiqlənib. Tələf edildikdən sonra alınan müayinələrdə heyvanda vərəmə rast gəlinməyib. Buna görə də H.Macdonald heyvanın haqsız qətl edilməsinə görə məhkəməyə müraciət edib, Qida, Ətraf mühit və Kənd İşləri Nazirliyinə qarşı iddia qaldırmağa hazırlaşır.

**Məlahət**

## Gözlərdə qanaxma...

### Qorxusu yoxdur, öz-özünə sağalır



**Subkonyunktival qanaxma konyunktivanın altındakı kiçik damarın, gözün xarici mühitlə təmasda olan hissələrini əhatə edən selikli qişanın partlaması nəticəsində baş verir.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, konyuntiva qanı tez uda bilmir, buna görə də qan üzə çıxır. Xəstələr güzgüyə baxana və gözlərinin ağlarının parlaq qırmızıya çevrildiyini görənə qədər konyunktival qanaxma olduğunun fərqinə varmırlar. Qanlı görünüşünə baxmayaraq, gözün vizual keyfiyyətində problem olmur.

Bu fotodakı körpə qızı anası məktəbdə dostlarını qorxutduğu üçün xəstəxanaya aparıb. Nəticədə onun gözlərində subkonyunktival qanaxma olduğu müəyyən olunub. Belə gözlər bir neçə həftə ərzində öz-özünə sağalır. Gözdə yanma hissi varsa, həkim gündəlik istifadə üçün göz damcıları təyin edə bilər.

**Günəş Mərd**

# Alimlər təsdiqləmir

## "Omikron" insanlara siçanlardan keçməyib

(Əvvəli səh: 8-də)

**"Omikron"un insanlara siçanlardan keçməsi fikri də alimlər tərəfindən təsdiqlənmir. Hər hansı variantın hansısa canlıda aşkarlanması, onun məhz həmin canlıdan insanlara yoluxduğu anlamına gəlməz.**

Virusun mutasiyaya uğraması üçün yayılması və çoxalması şərtdir. Virus insandan insan yoluxarkən də bir çox mutasiyalar ortaya çıxır. Bir virusun mutasiyaya uğraması üçün hansısa heyvandan insan keçməsi lazım gəlmir. Viruslar insandan insana yoluxduqda daha çox mutasiyaya uğrayır.



***Türk professor: "Peyvəndlərdə dəyişiklik edilməlidir ki, qoruyuculuq effekti yeni varianta uyğun olsun"***

"Omikron"la bağlı hazırda 3 fərziyyə var: insandan başqa bir heyvana keçib, heyvanlar arasında yayılıb, təkrar insana keçib; virus insanlar arasında uzun müddətdir yayılmaqda və çoxalmaqdadır; immuniteti zəif insanlar - xərçəng, ya da AİDS xəstələrində bu virusa rastlana bilər. Virusu nəzarətdə saxlamaq çətin olduğundan yayılır və insandan insana keçərək mutasiyaya uğrayır. Peyvəndlərin qoruyuculuğuna gəlincə, Ə.Ağacfidan deyib ki, məsələn, "Pfizer" peyvəndinin qoruyuculuğunun üstün olduğu bildirilir, lakin virus mutasiyaya uğradıqda daxilindəki proteində dəyişiklik baş verir, deməli, peyvəndlərdə də dəyişiklik edilməlidir ki, qoruyuculuq effekti yeni varianta uyğun olsun.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2589



## Tələbə adı ilə sərvət topladı

### 48 yaşlı ana 22 yaşlı qızının adından istifadə edib

**"Independent Türkçə" xəbər verir ki, ABŞ-ın Mussusi ştatında 48 yaşlı Laura Oglesby 2 il ərzində özünü universitet tələbəsi kimi təqdim edib.**

Universitetdən kredit şəklində maliyyə yardımı alıb. Bu, Lauranın 22 yaşlı qızı Lauren Ashleigh Haysın şəxsiyyət vəsiqəsini oğurlayıb istifadə etməsi nəticəsində olub. 48 yaşlı ana qızının şəxsiyyət vəsiqəsindən istifadə edərək universitet tələbəsi kimi kitabxanada işə də düzəlib. Hətta iş yerində onu həqiqətən 22 yaşlı gənc qız hesab edən sevgililəri də olub. Qadın qızının sənədi ilə sosial müdafiə qurumunu da aldadaraq 25 min dollar mənimsəyib. Bazar ertəsi keçirilən məhkəmədə qadın günahını etiraf edib. Məhkəmə qadın barəsində 5 il həbs cəzası qərarı çıxarıb. Məhkəmənin qərarı ilə qadın Southwest Baptist Universitetinə və qızı Laurenə ümumilikdə 17 min 521 dollar təzminat ödəməlidir. "New-York Times"ə danışan polis rəisi Jamie Perkins "buna hər kəs inanmış. Hətta 22 yaşında olduğuna inanan oğlan dostları belə varmış", deyib. Qadın isə məhkəmədə ailədaxili şiddət gördüyü üçün evdən qaçıb Missuri ştatına gəldiyini bildirib.

**Məlahət**

## Vərəm deyildi, amma öldürüldü

### Heyvanın haqsız qətl edilməsinə görə məhkəməyə müraciət olunub



**Analiz götürülən alpaka, başqa adıyla tüklü lamada xroniki, yoluxucu və zoonotik xəstəlik olan "sığır vərəmi" testi cavabının müsbət çıxmasıyla heyvan tələf edilib. Bu məsələ uzun müddət müzakirə predmeti olub.**

Lamanın tələf edilməsinə əsaslı səbəb olmadığını iddia edən sahibi hüquqi tərəflərə baş vurub. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hadisə İngiltərədə yaşanıb. 2017-ci ildə Yeni Zellandiyadan gətirilmiş, Geronimo adı verilən tüklü lamanın "sığır vərəmi" testinin nəticəsi pozitiv çıxdıqdan sonra Qida və Ətraf Mühit işləri Departamenti heyvanın xüsusi vasitə ilə yatızdırılması təlimatını verib. Geronimonun sahibi, ixtisasca baytar olan Helen Macdonald isə test nəticələrinə qarşı çıxıb və heyvanın həyatını xilas etmək üçün Ali Məhkəməyə müraciət edib. Və heyvanın sağlam olmasına dair yeni dəlillər irəli sürüb.

**Məlahət**

*(Davamı səh: 7-də)*

## Kişi dəlisidir

### 52 yaşlı Monette Dias 12-ci evliliyə hazırlaşır



**ABŞ-ın Yuta ştatında yaşayan 52 yaşlı Monette Dias qatıldığı Addicted To Marriage proqramında 11 dəfə evləndiyini və 12-ci dəfə evlənməyə hazır olduğunu bildirib.**

**Milli.Az xarici mdiaya istinadən xəbər verir ki, özünü "kişi dəlisi" kimi qələmə verən Dias kişilərə qarşı hər zaman zəif tərəfinin olduğunu bildirib. Kişilərə olan sevgisini "çox tez aşiq olmaq" ilə izah edən Dias, indiyə qədər 28 dəfə evlilik təklifi aldığını, münasibətdə uğursuzluqla üzləşəndə dərhal başqalarını axtarmağa başladığını söyləyib.**

## İlon Mask "Tesla"nın bir milyard dollara yaxın səhmlərini satıb



**"Tesla" şirkətinin rəhbəri İlon Mask şirkətin 963 milyon dollar məbləğində səhmlərini satıb.**

**Trend-in məlumatına görə, o, səhmləri 2,2 milyon istiqrazın icrası üzrə vergilərin ödənməsi məqsədi ilə satdığını bildirib.**

**İ.Mask noyabr ayından etibarən "Tesla"dakı payını azaltmağa başlayıb. Son beş həftə ərzində o, 11,8 milyard dollar məbləğində səhm satışa çıxarıb.**

***Qeyd edək ki, İlon Mask bu gün öz "Twitter" səhifəsində işini tərk edərək bloger olmaq arzusunda olduğunu bildirmişdi.***

## Yüz minlərlə bəyənmə gəldi

### 57 yaşlı Monika Belluççi müxtəlif obrazlarda fotolar çəkdirib



**İtaliyalı aktrisa və model Monika Belluççi yeni fotosessiya etdirib.**

**"Style" jurnalı üçün obyektiv qarşısına keçərək müxtəlif obrazlarda fotolar çəkdirib.**

**Belluççi həmin şəkilləri 4,5 milyonluq instaqram hesabında yayımlayıb.**

**Onun cazibədar fotoları sosial şəbəkə istifadəçiləri tərəfindən çox bəyənilib. Monikanın paylaşımına yüz minlərlə bəyənmə gəlib.**



# Alimlər təsdiqləmir

### "Omikron" insanlara siçanlardan keçməyib

**Məlahət Rzayeva**

**"Hazırda mövcud olan bütün vaksinlər "Omikron" ştamına qarşı işə yarayır". Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi və ofis rəhbəri Hande Harmancı deyib. H.Harmancı qeyd edib ki, Azərbaycanda hələlik "Omikron" ştamına rast gəlinməyib: "Amma bu, sözügedən ştamın Azərbaycanda aşkarlanmayacağı mənasına da gəlmir.**

Koronavirusun mutasiyaları dünyada yayılır və virusun olduğu hər yerdə ştamlara rast gələcəyik. Lakin narahat olmağa gərək yoxdur. Hazırda mövcud olan bütün vaksinlər "Omikron" ştamına qarşı işə yarayır".

Dünya alimlərini isə hazıra bu sual düşündürür - "Omikron" pandemiyanı bitirəcək, 2 ildir gözlənilən "xilaskar" mutasiyadırmı? İddialar, mülahizələr fərqlidir. Alimlərin bir qismi "Omikron"un pandemiyanı sonlandıracaq variant olduğuna inanır. Bir qisim isə konkret cavab verməkdən çəkinir. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, "Omikron"la bağlı hazırkı məlumatlar bu variantın əsasən gənclər arasında yayıldığını, yeni variant ilk yoluxma faktının da məhz gənc insanda aşkarlandığını və əvvəlki variantlara nisbətən daha az ölümcül olmasıdır.

Hong Kong Universiteti Li Ka Shing Tibb Fakültəsi tərəfindən "Omikron" ştamının ilk mikroskopik görüntüsü yayılıb. Alimlərə görə, COVİD-19-un "Delta" variantı ilə hazırkı "Omikron" variantı arasında bəzi fərqlər var. İstanbul Tibb Fakültəsi Tibbi-Mikrobiologiya

### *Türk professor: "Peyvəndlərdə dəyişiklik edilməlidir ki, qoruyuculuq effekti yeni varianta uyğun olsun"*

kafedrasının virusologiya və təməl immunologiya elmləri üzrə professor Əli Ağacfidan qeyd edib ki, "Omikron" variantı əsasən gənclərdə aşkarlanır. "Omikron"un 50 müxtəlif mutasiyası müşahidə edilib, onlardan 32-si spike bölgəsindədir (S proteininin müəyyən bölgəsinə yönəlmiş anticisimlərin hədəfə alınması). "Delta"da isə bu fərq 9-dur. Ona görə də kliniki göstərişlərdən çıxış edərək nəticə çıxarmaq hələ tezdir. Virus hələ yenidir. "Omikron" variantına yoluxma halında dad və qoxubilmə qabiliyyətinin itməsi ilə bağlı isə bildirilir ki, ilk yoluxma faktlarında buna rast gəlinməyib. Yəni "Omikron"a yoluxanlarda dad






və qoxubilmə itməyib. Lakin bu, sonrakı yoluxmaların da eyni cür baş verəcəyi anlamına gəlməməlidir. Mülahizə yürütmək üçün araşdırmaların sayı çox olmalıdır.

*(Davamı səh: 7-də)*



## O balı toplamaq cəsarət istər!

### Bəzən saatlarla uçurumlara dırmaşmaq üçün həyatlarını riskə atırlar

**Məlahət Rzayeva**

**"Associated Press" Nepalda sıldırım dağlarda yetişən yabanı balın toplanmasını əks etdirən fotolar yayıb. Dünya yabanı balın necə əziyyətlə toplandığını bu fotolardan görüb. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, yabanı balı toplamaq üçün nepallılar dağ uçurumlarına təhlükəli dırmanışlar edir.**

Bal əldə etmək üçün dağlara dırmanış bəzən saatlarla çəkir. Uçurumun kənarında kəndir nərdivanla bal toplamaq böyük cəsarət tələb edir. Amma yoxsul insanlar pul qazanmaq üçün canlarını - həyatlarını riskə atmaqdan çəkinmirlər. Bal toplamaq prosesində bir neçə nəfər iştirak edir. Kəndir nərdivanla sərt qayalıqlara dırmaşanlar bal pətəklərini özləriylə götürdükləri səbətlərə yığır, sonra da səbətləri aşağıda dayananlara kəndirlə ötürürlər. Yabanı bal toplanmasını əks etdirən fotoları AP-nin fotomüxbiri Niranjan Shrestha Nepalın paytaxtı Katmandudan 185 kilometr məsafədə yerləşən Dolakha əyalətində çəkib. Bal toplanmasında "bal ovçusu" kimi tanınan Devi Bahadur və komandası iştirak edib. Komanda dik yamaclar və dərin vadilərdən keçərək Himalayın ətəklərindəki uçurumun altına çatırlar. Əllərində bambukdan yoğun kəndirlər, bambuk çubuqları, bal toplamaq üçün digər əşyalar, səbətlər olur. Bütün bu əşyaları yol boyu daşıyırlar. Yol uzun və yorucu olduğundan bal ovçuları özləriylə yemək və içməli su da götürür. Əsl təhlükə isə Tama Koshu çayının kənarındakı uçurumda başlayır. Yolçuların axtardığı xəzinə - yabanı bal məhz bu uçurumun zirvəsindədir. Devi və komandası əşyalarını çəmənlikdə yerbəyer etdikdən sonra ocaq qalayırlar. Ocağın tüstüsü yüksələndə bal xəzinəsini əldə etmək üçün yüksəkliyə təhlükəli dırmanış başlayır. Bambukdan düzəldilmiş kəndir nərdivanla yuxarıya doğru dırmanırlar. Başlarında qoruyucu maska olur. Bir əllərində bambuk çubuğu, o birində səbət. Aşağıdakılar da onları dörd gözlə izləyir. Bal pətəklərinə çatdıqda əllərindəki çubuqla pətəkləri qurdalayır, "əsəbi" arılar pətəkdən çıxır. Arılar çıxınca sarı, dilim-dilim pətəkləri səbətlərə toplayırlar. Aşağıda gözləyənlərə işarə verir və onlar enən səbəti qarşılayır. Səbət yerə çatdıqda pətəyin üzərindəki arıları sürətlə təmizləyirlər. Bir nəfər balı cəld süzməyə başlayır. Və çox az rast gəlinən yabanı bal süzülüb hazır vəziyyətə gətirilir. Bal toplayanlar qoruyucu maskalardan, əlcəklərədn istifadə etsə də, vəhşi arılar əmək verdikləri neməti asanlıqla təslim etmir. Arılar bal toplayanların əllərini, üzünü dəfələrlə sancır. Günün sonunda 34 litr bal əldə edilir. Amma Devi bahadurun əlləri, üzü, ayaqları da arı sancmasından qıpqırmızı və şişmiş olur. Bu yabanı balın kiloqramı bazarda 25 dollara satılır. Hər cür təhlükəyə baxmayaraq bal ovçuları sonda ailələrinə qazanc aparır.





## Sərdar Ortac ölümlə hədələnir

### Qumarda uduzduğu pulları qaytarmalıdır!



**Türkiyə sənət cameəsində "fəlakət dəllalı" adını almış bəstəkar, şair, aparıcı Onur Akay pop "ulduz"u Serdar Ortac haqqında şok açıqlamalar verib.**

Türkiyə mediasında yer alan xəbərə görə, O.Akay deyib ki, Sərdar Ortac qumarda milyonlar uduzub, uduzduğu pulları geri qaytara bilmədiyi üçün də ölümlə hədələnir. Sərdar Ortac bundan əvvəl də qumarbazlığı və bu səbəbdən yığılan borcları ilə tez-tez gündəmə gəlirdi. Boynuna yük olan pulları qaytara bilmək üçün pop "ulduz"un mahnılarının müəlliflik hüququnu satışa çıxardığı və 5 illik müddətdə mahnılarından gələcək gəlirə iddia etməmək şərtilə 1 milyon türk lirəsi aldığı bildirilmişdi. Məşhur ifaçının "Best Of Serdar" musiqi albomunun gəlirlərindən imtina etməsi qarşılığında 200 min TL aldığı deyilirdi. Onur Akay indi isə qumar borcu səbəbiylə Sərdar Ortacın ölüm təhdidi aldığını, ifaçının qumarda 459 min 670 dollar uduzduğunu bildirib. Sərdar Ortacın mahnılarının müəlliflik hüququnu bir iş adamına satdığı deyilir. Bu o deməkdir ki, bundan sonar Sərdar Ortacın mahnıları harada oxunsa, əldə edilən gəlir ifaçıya deyil, mahnıların hüququnu satın almış adama çatacaq. İfaçı özü də bir konsert öncəsi etiraflarda bulunmuşdu: "Keçmişdə çox xətalar etdim. Qumar məni bitirdi. Allah bəlamı versin, çox peşmanam. Evimi girov qoymuşam. Borcla yatıb-qalxmaqdan artıq çox yoruldum. Amma çox çalışmalıyam". İfaçının banka 10 milyon TL borcu var.

**Məlahət**

## 5 min cərimə, 3 ay həbs

### Aktisanı təhqir edən şəxs cərza aldı...



**Aktrisa Mine Tuqayı sosial şəbəkədə təhqir etməkdə təqsirləndirilən şəxs cərimələnib.**

Axşam.az xəbər verir ki, aktrisa instaqramda ona təhqir, söyüş və şiddət dolu mesajlar göndərən Yusuf B. adlı şəxsi məhkəməyə verib.

O, "səsli, yazılı və ya video mesajla birbaşa şəxsi təhqir etmə" maddəsi ilə şəxsin 3 ay 15 gündən 2 il 4 ay müddətinə qədər həbs edilməsini istəyib. Təqsirləndirilən şəxs mesajların göndərildiyi hesabın ona aid olduğunu, lakin onun oğurlandığını əsas gətirərək ittihamı qəbul etməyib. Ötən gün baş tutan məhkəmənin qərarına əsasən müttəhim 5 min 400 lirə məbləğində cərimələnib.

*Təqsirləndirilən şəxsin cinayət işləmədiyini nəzərə alan məhkəmə hökmün elan edilməsini təxirə salıb.*